HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№20 (610) ■ 30 may 2012 www.vergiler.az Qiyməti: 40 qəp.

# Bakıda möhtəşəm final şousu

## *Prezident İlham Əliyev «Eurovision-2012» mahnı müsabiqəsinin final mərhələsini izləmişdir*

**Bakının ev sahibliyi etdiyi «Eurovision-2012» mahnı müsabiqəsinin final mərhələsi başa çatmışdır. 28 yaşlı isveçli müğənni Loren 42 ölkənin səs verməsi nəticəsində «Eyforiya» mahnısı ilə «Eurovision-2012»nin qalibi olmuşdur.**

**Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri möhtəşəm «Baku Crystal Hall»a gələrək «Eurovision-2012» mahnı müsabiqəsinin final mərhələsini izləmişlər.**




Birincilik uğrunda mübarizə aparan 26 ölkənin - Böyük Britaniya, Macarıstan, Albaniya, Litva, Bosniya və Herseqovina, Rusiya, İslandiya, Kipr, Fransa, İtaliya, Estoniya, Norveç, Azərbaycan, Rumıniya, Danimarka, Yunanıstan, İsveç, Türkiyə, İspaniya, Almaniya, Malta, Makedoniya, İrlandiya, Serbiya, Ukrayna və Moldovanın təmsilçilərinin hər biri üç dəqiqə ərzində möhtəşəm şou nümayiş etdirmişlər.

42 ölkənin iştirak etdiyi səsvermə prosesində «Baku Crystal Hall»a ilk olaraq Albaniya qoşulmuşdur. İştirakçı ölkələrin əksəriyyətinin mühüm hesab edilən 8, 10, 12 səslərini İsveçə verməsi çoxlarını təəccübləndirmədi. Çünki müsabiqənin ilk günlərindən məhz İsveçin qələbəsinə inananlar çox idi. Bununla da ən çox səs qazanan İsveç təmsilçisi Loren müsabiqənin qalibi olmuşdur.

Azərbaycan isə «Eurovision-2012» mahnı müsabiqəsində dördüncü yerdə qərarlaşmışdır. Ukrayna, Malta, Litva, Türkiyə ən yüksək -12 səsini, Gürcüstan, Moldova, Bolqarıstan, İsrail 10 səsini, Kipr isə 8 səsini Azərbaycanın hesabına yazdırmışdır.

Azərbaycandan verilən səslərin nəticələrini 2010-cu ildə Norveçdə keçirilən «Eurovision» mahnı müsabiqəsində ölkəmizin təmsilçisi olmuş Səfurə Əlizadə elan etmişdir. Səfurə Azərbaycanın 8 səsi Maltaya, 10 səsi Rusiyaya, 12 səsi isə qardaş Türkiyəyə verdiyini elan etmişdir. Səsverməyə sonuncu olaraq İrlandiya qoşulmuşdur. Bununla da 372 səs alan İsveç müsabiqənin birincisi olmuş, Rusiya ikinci, Serbiya üçüncü, Azərbaycan isə dördüncü yeri tutmuşdur.

Müsabiqənin qaydalarına əsasən, qalib ölkənin təmsilçisi yenidən «Eurovision»un əsas səhnəsinə çıxaraq ona birincilik qazandırmış mahnısını bir daha ifa etmişdir. Möhtəşəmliyi ilə dünyanı heyran qoyan «Baku Crystal Hall»un səhnəsində İsveç təmsilçisini «Eurovision-2011»in qalibləri Eldar və Nigar təbrik edərək, ona yarışmanın rəmzi «Billur mikrofon»unu təqdim etmişlər.

Daha sonra qalib ölkənin təmsilçisi «Baku Crystal Hall»un Mətbuat Mərkəzində jurnalistlərlə görüşmüş, onların suallarını cavablandırmışdır. Loren «Eurovision-2012» mahnı müsabiqəsinin yüksək səviyyədə təşkil edildiyini, «Baku Crystal Hall»un möhtəşəm, Bakının gözəl şəhər, azərbaycanlıların qonaqpərvər və istiqanlı olduğunu demişdir.

Azərbaycanın ev sahibliyi etdiyi «Eurovision-2012» mahnı müsabiqəsinin bütün şouları 46 ölkədə birbaşa yayımlanmışdır.

# Dənizkənarı Milli Parkda «Kiçik Venesiya şəhərciyi»nin açılışı olmuşdur

## *Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir*



Mayın 28-də Dənizkənarı Milli Parkda «Kiçik Venesiya şəhərciyi» adlanan ərazi əsaslı yenidənqurmadan sonra istifadə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Dənizkənarı Milli Parkda aparılan abadlıq-quruculuq işləri nəticəsində əsaslı şəkildə yenidən qurulan «Kiçik Venesiya şəhərciyi» bulvarın ən gözəl guşələrindən biridir. 1960-cı illərdə salınan şəhərcik Dənizkənarı Milli Parka gələnlər üçün sevimli istirahət yeri olmuşdur. Prezident İlham Əliyev ötən ilin martında bulvarda olarkən «Kiçik Venesiya şəhərciyi»nin yenidən qurulması ilə bağlı göstəriş vermişdir.

Azərbaycan Prezidentinin tapşırıqlarına əsasən, şəhərcik ən müasir tələblər səviyyəsində yenidən qurulmuşdur. «Kiçik Venesiya şəhərciyi» əvvəlki görkəmi saxlanılmaqla yeni elementlərlə zənginləşdirilmiş, kanallar genişləndirilmiş, dərinləşdirilmiş və su keçidləri ilə birləşdirilmiş, buraya müasir qayıqlar gətirilmişdir.

Prezident İlham Əliyev «Kiçik Venesiya şəhərciyi»nin ərazisi ilə yaxından tanış olmuşdur. Qeyd edilmişdir ki, şəhərcikdə mənalı istirahət üçün hər cür şərait yaradılmışdır. Milli ornamentlərlə bəzədilmiş şəhərcikdə kanalların üzərində yeni körpülər inşa olunmuşdur. Burada su anbarı və sutəmizləyici sahə yaradılmışdır. Sutəmizləyici qurğuların köməyi ilə kanalların suyunun daim təmizlənməsi və həmişə şəffaf qalması təmin ediləcəkdir.

Şəhərcikdə yaradılmış müasir iaşə obyektlərində müştərilərə həm Qərb, həm də Şərq mətbəxinin ləziz nümunələri təqdim olunacaqdır. Kanallarda, körpülərdə və tuneldə quraşdırılan işıqlandırma sistemi axşam saatlarında şəhərciyin gözəlliyini daha da artıracaqdır. Əsl Venesiyanı xatırladan «Kiçik Venesiya şəhərciyi» öz gözəlliyi ilə paytaxta xüsusi yaraşıq verir. Əvvəlki ilə müqayisədə daha müasir, maraqlı və xoşagələn olan yeni «Kiçik Venesiya şəhərciyi»nin əsaslı təmirdən sonra istifadəyə verilməsi 28 May - Respublika Günü münasibətilə Azərbaycan vətəndaşları üçün əsl hədiyyə olmuşdur.

Sonra Prezident İlham Əliyev Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün Dənizkənarı Milli Parkın ərazisində inşa edilən yeni binanın ətrafında görülən işlərlə maraqlanmışdır.

rəsmi xronika

### Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Respublika Günü münasibətilə paytaxtın İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir. Dövlətimizin başçısı abidənin önünə əklil qoymuşdur. Azərbaycan Respublikasının dövlət himni səsləndirilmişdir.

### Bakıda yeni yol qovşağının üçüncü kompleksi istifadəyə verilmişdir

Mayın 28-də Bakının Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişməsində, metronun «Koroğlu» stansiyasının yaxınlığında yerləşən müxtəlif səviyyəli yol qovşağının üçüncü kompleksi istismara verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı yol qovşağının texniki göstəricilərini, paytaxtda təmir olunacaq yolları və prospektləri əks etdirən stendlərlə tanış olmuşdur.

Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına yol qovşağının tikintisi və texniki göstəriciləri barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, bu yol qovşağının tikintisinə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, 2006-cı il aprelin 11-də başlanmışdır. Layihəyə əsasən, üç kompleksdən ibarət olan bu qurğunun ümumi uzunluğu 3 min 680 metrdir. Qurğu doqquz körpü, körpü girişləri və qovşağın tərkib hissəsi olan avtomobil yollarından ibarətdir.

Diqqətə çatdırılmışdır ki, qovşağın uzunluğu 1286 metr olan birinci kompleksi 2008-ci ilin sentyabrın 23-də istismara verilmişdir. Yol ötürücüsünün bu hissəsində üç körpü, yol yanaşmaları və avtomobil yolu yerləşir. Qovşağın ikinci kompleksi isə 2010-cu il iyulun 2-də açılmışdır. Uzunluğu 1194 metr olan ikinci kompleks beş körpü və körpü yanaşmalarını özündə birləşdirir. İstifadəyə hazır olan qovşağın üçüncü - son kompleksinin ümumi uzunluğu isə 1200 metrdir. Burada uzunluğu 360 metr olan asma konstruksiyalı ikiaşırımlı yol ötürücüsü inşa olunmuşdur.

Qeyd edilmişdir ki, hava limanı istiqamətindən gələn nəqliyyat vasitələrinin «8-ci kilometr», Əhmədli, «Günəşli» yaşayış massivləri və Zığ dairəsi-hava limanı magistral avtomobil yoluna birbaşa hərəkətini təmin etmək üçün inşa olunan üçüncü kompleksin asma dayağının hündürlüyü 93 metr, körpüdəki yolun hərəkət hissəsinin eni isə 9 metrdir. Aşırım qurğusunda 52 kanatdan istifadə olunmuşdur. Yolun hərəkət hissəsində 4 min 565 kvadratmetr sahədə hidroizolə işləri görülmüşdür. Yerdən hündürlüyü altı metr olan ikizolaqlı yol birtərəflidir. Bu kompleksin ətrafında 2 min 500 kvadratmetr sahədə abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.

Sonra Prezident İlham Əliyevə Bakı şəhərində təmir olunacaq yollar və prospektlər barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, bu ilin iyun-sentyabr aylarında paytaxt ərazisində ümumilikdə 75,8 kilometr yolda təmir-bərpa işləri aparılacaqdır. Yusif Səfərov küçəsi, Azadlıq və Azərbaycan prospektləri, «Şərq bazarı» ərazisi və Koroğlu Rəhimov küçələrində avtomobil yolları yenidən qurulacaqdır.

Prezident İlham Əliyev üçüncü kompleksin açılışını bildirən rəmzi lenti kəsmişdir. Dövlətimizin başçısı İlham Əliyev körpüdən ətraf ərazini seyr etmişdir. Bildirilmişdir ki, inşası tam başa çatdırılan üçkompleksli bu qovşaq hava limanı, Qara Qarayev, 20 Yanvar prospektləri, «8-ci kilometr» yaşayış massivi, Bakıxanov qəsəbəsi, paytaxtın mərkəzi istiqamətlərində avtomobillərin sərbəst və təhlükəsiz hərəkətini təmin etməklə, ərazidə tıxac probleminin həllinə imkan yaradacaqdır.

Prezident İlham Əliyev nəqliyyatçılara və inşaatçılara uğurlar arzulamışdır.

### Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

2 Dövlət büdcəsinə əlavə və dəyişikliklər ediləcək

3 Kiçik və orta sahibkarlığın inkişafı üçün səmərəli potensial

4 Regionlarda POS-terminalların quraşdırılması davam edir

5 Nağdsız ödənişlər: əsas inkişaf hədəfimiz

# Dövlət büdcəsinə əlavə və dəyişikliklər ediləcək

## Azərbaycan Prezidenti 2012-ci ilin dövlət büdcəsinə əlavə və dəyişikliklərlə bağlı qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmişdir

***Cari ilin dövlət büdcəsində öz əksini tapan müddəalar uğurla icra olunur. 2012-ci ilin birinci rübündə dövlət büdcəsinə 3 milyard 487,8 milyon manat vəsait daxil olmuş, büdcədən müxtəlif sosial və iqtisadi tədbirlərin maliyyələşdirilməsinə 2 milyard 843,2 milyon manat vəsait xərclənmişdir.***



Dövlət Statistika Komitəsindən verilən məlumata görə, büdcə gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 26% və ya 719,4 milyon manat, büdcə xərcləri isə 36,2% və ya 755,8 milyon manat artmışdır. Nəticədə dövlət büdcəsinin profisiti ümumi daxili məhsulun 5,2%-i səviyyəsinə çatmışdır.

Buna baxmayaraq, hər il oldugu kimi, 2012-ci ildə də dövlət büdcəsinin gəlir və xərclərinə yenidən baxılması zərurəti yaranmışdır. Azərbaycan Respublikasının 2012-ci ilin dövlət büdcəsinə ediləcək əlavə və dəyişikliklərin əsas mahiyyəti ölkə başçısının tapşırığına uyğun olaraq, ölkənin şimal-qərb bölgəsində baş vermiş zəlzələ nəticəsində Zaqatala, Qax, Balakən və Şəki rayonlarının əhalisinə və sosial-iqtisadi infrastrukturlarına dəymiş ziyanın, 2010-cu ildə Kür və Araz çaylarının Sabirabad və Salyan rayonlarının ərazisində yaratdığı irimiqyaslı fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı işlərin başa çatdırılması üçün əlavə maliyyə vəsaitinin ayrılması ilə baglıdır. Bundan başqa, cari ildə ölkənin bəzi rayon və şəhərlərinin ərazisində normadan artıq yağan leysan yağışlarının, sel və daşqınların törətdiyi fəsadların (Saatlı, İmişli, Neftçala, Hacıqabul, Şirvan, Zərdab, Kürdəmir, Salyan, Sabirabad, Şamaxı) aradan qaldırılması, ölkədə ehtimal olunan təbii fəlakət və fövqəladə halların qarşısının alınması və qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə xüsusi təyinatlı maşın və avadanlıqların alınması, Bakı şəhərinin bir sıra ərazilərində müəyyən edilmiş sürüşmə zonalarında müvafiq tədbirlərin görülməsi üçün əlavə maliyyə təminatının yaradılması qanun layihəsində öz əksini tapmışdır.

Eyni zamanda, Bakı şəhərinin ətraf ərazilərində və onun kəndlərində qrunt sularının səviyyəsinin qalxması ilə bağlı tədbirlərin görülməsi, ekoloji və sanitar durumun yaxşılaşdırılması, habelə 2012-ci ilin ötən dövrü ərzində ölkənin hərbi quruculuğu və təhlükəsizliyi sahəsində qəbul edilmiş fərman və tapşırıqların icrası və dövlət büdcəsində əvvəlcə nəzərdə tutulmayan tədbirlərin maliyyələşdirilməsi üçün əlavə vəsait cəlb edilməsi məsələləri dövlət büdcəsinə əlavə və dəyişikliklərdə öz təsdiqini tapacaq.

Qeyd olunan məsələlərlə bağlı Azərbaycan Respublikasının 2012-ci il üçün dövlət büdcəsinin gəlirləri və xərcləri 600 milyon manat artırılacaq. Dövlət büdcəsinə əlavə daxilolmaların iqtisadiyyatın neft və qeyri-neft sektorundan vergi daxilolmaları hesabına təmin edilməsi nəzərdə tutulmuşdur. Xüsusilə qeyri-neft sektorundan büdcə daxilolmalarının daha çox olacağı proqnozlaşdırılır. Ümumilikdə, qanun layihəsində büdcə gəlirlərinin 17 milyard 038 milyon manata, xərclərinin isə 17 milyard 672 milyon manata çatdırılması planlaşdırılır.

Azərbaycan Respublikasının Hesablama Palatasının verdiyi rəydə bildirilir ki, 2012-ci ilin ötən dövrü ərzində ölkə iqtisadiyyatını xarakterizə edən makroiqtisadi göstəricilər və ona təsir edən amillər cari ilin dövlət büdcəsinin gəlir və xərc parametrlərinin dürüstləşdirilməsini zəruri etmişdir. Buna görə də Hesablama Palatası 2012-ci ilin dövlət büdcəsinə əlavə və dəyişikliklərin Milli Məclis tərəfindən müzakirəyə çıxarılmasına müsbət rəy vermişdir.

**Rəşad SADIQOV**

# «Azərbaycanın vergi jurnalı»nın ikinci nömrəsi çapdan çıxmışdır

Vergilər Nazirliyinin resenziyalı elmi nəşri olan «Azərbaycanın vergi jurnalı»nın 2-ci (mart-aprel) nömrəsi çapdan çıxmışdır. Jurnalın bu nömrəsində də ənənəvi rubrikalar öz yerini tutur.

«Rəsmi» rubrikasında Avronest Parlament Assambleyasının (PA) aprelin 3-də Bakıda, Azərbaycan Respublikası Milli Məclisinin binasında keçirilmiş ikinci sessiyasının rəsmi açılış mərasimində Prezident İlham Əliyevin nitqinin tam mətni, dövlətimizin başçısının sədrliyi ilə aprelin 16-da keçirilmiş Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas barədə geniş məlumat, həmçinin həmin iclasda vergilər naziri Fazil Məmmədovun çıxışının tam mətni dərc edilmişdir.




Vergilər nazirinin Böyük Britaniya Krallığının və Ukrayna Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri ilə görüşləri, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) «Vergi borclarının idarə edilməsi» üzrə İşçi Qrupunun Bakıda keçirilmiş ilk iclası, Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 2-ci iclası, həmçinin Vergilər Nazirliyində Avropa Şurası Yerli və Regional hakimiyyətlər konqresinin nümayəndə heyəti ilə keçirilmiş görüş barədə məlumatlar «Əməkdaşlıq» rubrikasında yerləşdirilmişdir.

Oxucular jurnalın bu nömrəsində Amerika Ticarət Palatasının təşkilatçılığı ilə «Azərbaycanda vergitutma: yeni vergi mədəniyyəti naminə» mövzusunda keçirilmiş konrans haqqında məlumat və konfrans iştirakçılarının fikirləri ilə də tanış ola bilərlər.

«Müsahibə» rubrikasında Türkiyənin tanınmış iqtisad nəzəriyyəçilərindən olan 9 Eylül Universiteti «İqtisad tarixi» kafedrasının müdiri professor Recep Kökün «Azərbaycanın inkişaf prosesini böyük fərəh hissi ilə izləyirəm...» başlıqlı müsahibəsi verilmişdir. Müsahibəni jurnalımızın məsləhətçisi, Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi Elşən Bağırzadə almışdır.

Nömrədə bir neçə qanunvericilik sənədi, o cümlədən «İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetaları haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 iyun tarixli 102 nömrəli qərarında dəyişikliklər edilməsi barədə», «Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları», «Dövlət reyestr kitabı», «Qeyri-kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatı haqqında şəhadətnamə», «Təhsil müəssisələrinin dövlət qeydiyyatı haqqında şəhadətnamə», «Qeyri-kommersiya qurumlarının və təhsil müəssisələrinin dövlət reyestrindən çıxarışın forması və çıxarışda göstərilən məlumatların həcmi» və «Qeyri-kommersiya qurumlarının və təhsil müəssisələrinin dövlət qeydiyyatına alınması barədə ərizənin forması»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli qərarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları dərc edilmişdir.

Jurnalın elmi məqalələr blokunda bu dəfə iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən tədqiqatların nəticələrinin əks olunduğu elmi məqalələr yerləşdirilmişdir. Bunlar i.e.d., prof. E.Hacızadənin «Neft-qaz sektorunun inkişafının iqtisadi artıma təsirinin qiymətləndirilməsi», i.e.d. Y.Kəlbiyevin «Fiziki şəxslərin gəlir və hüquqi şəxslərin mənfəət vergilərinin inteqrasiyası», i.e.d., prof. R.Həsənovun «Müasir Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin xüsusiyyətləri», i.e.f.d. P.Rzayevin «İqtisadiyyatın vergi tənzimlənməsi istiqamətində vergitutmanın optimallaşdırılması», i.e.f.d. S. Səməndərovun «XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda daxili və xarici ticarət, gömrük işinin təşkili ilə əlaqədar dəyərləndirmələr», Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı E.Abdullayevanın «Post-sosialist iqtisadiyyatında dövlət mülkiyyətinin tədqiqinin nəzəri və metodoloji aspektləri» (rus dilində), AMEA-nın İqtisadiyyat İnstitutunun dissertantı Y.Muradovun «Azad iqtisadi zonalarda vergi stimullaşdırılması», Bakı Dövlət Universitetinin dissertantı K.Eyyubovun «Azərbaycanda 2000-2010-cu illərdə məşğulluq səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətlərin təhlili», AMEA-nın Kibernetika İnstitutunun elmi işçisi S.Ağayevin «Sadələşdirilmiş vergi ödəyicilərinin paylanma qanunu və vergidən yayınma riski» başlıqlı məqalələridir.

Jurnal «Elm korifeyləri» rubrikasında oxuculara bu dəfə 1986 və 1987-ci illərdə Nobel mükafatına layiq görülmüş Amerika iqtisadçıları Ceyms Byukenen və Robert Solounun həyatı və elmi yaradıcılığı barədə oxuculara məlumat verir.

Bu nömrədə jurnal «İqtisadi terminlər lüğəti»nin dərcini də davam etdirmiş, həmçinin üç dildə «Müəllif qaydaları»nı çap etmişdir.

# Əmanətlər üzrə müraciətlərin qəbuluna başlanılır

## *Müraciətdən cəmi bir neçə gün sonra ödəmə həyata keçiriləcək...*

Xəbər verdiyimiz kimi, ölkə başçısı bu ilin mart ayının 14-də keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında fərman imzalayıb. Fərmana uyğun olaraq, cari ilin iyun ayının 1-dən etibarən əmanətçilərdən müraciətlərin qəbuluna və ödəmələrin verilməsinə başlanılacaq. Birdəfəlik ödəmələrin verilməsi SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının hüquqi varisi sayılan müvəkkil bank «Kapital Bank» Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçiriləcək. İyunun 1-nə artıq bir gün qalır. Maraqlıdır, «Kapital Bank» bu genişmiqyaslı prosesə hazırdırmı?




Suallarımıza aydınlıq gətirən bankın mətbuat katibi Yadigar Cəfərov bildirdi ki, fərmandan irəli gələn vəzifələrin vaxtında və layiqincə yerinə yetirilməsi üçün bank tərəfindən müvafiq hazırlıq işləri görülüb. Fərdi birdəfəlik ödəmələrin verilməsi üçün müraciətlərin qəbuluna 1 iyun 2012-ci il tarixindən başlanılacaq və müraciətlərin qəbulu prosesi 31 dekabr 2012-ci il tarixinə qədər davam etdiriləcək. Araşdırılması uzun zaman tələb etməyən hər bir müraciətin qəbulundan cəmi bir neçə gün sonra ödəmə həyata keçiriləcək. Sənədləri qaydasında olan bütün əmanətçilərə fərdi birdəfəlik ödəmələrin verilməsi 31 dekabr 2012-ci il tarixinədək başa çatdırılacaq.

31 dekabr 2013-cü il tarixinə qədər isə ümumilikdə bütün müraciətlərin araşdırılması və fərdi birdəfəlik ödəmələrin verilməsi prosesi sona çatacaq. Hər bir müraciət araşdırılacaq və vətəndaşlar qanunamüvafiq qaydada fərdi birdəfəlik ödəmə almaq hüquqlarından istifadə edə biləcəklər. Müraciətlərin qəbulu və fərdi birdəfəlik ödəmələrin verilməsi məqsədilə «Kapital Bank» tərəfindən ötən müddət ərzində ümumilikdə 143 məntəqə yaradılıb. Məntəqələrdən 65-i Bakı şəhərində, 78-i respublikamızın digər regionlarında fəaliyyət göstərəcək.

Bundan başqa, itmiş, yaxud yararsız vəziyyətə düşmüş əmanət kitabçaları üzrə müraciətlərin qəbulu məqsədilə Bakıda 3, Naxçıvan, Gəncə və Sumqayıt şəhərlərinin hər birində 1 əlavə məntəqə təşkil edilib. Digər rayon və şəhərlərdə bu qəbildən olan müraciətlər «Kapital Bank»ın yerli filiallarında qəbul olunacaq.

Bu sahədə vətəndaşların müraciətlərinin araşdırılması məsələsinə toxunan Y.Cəfərov bildirdi ki, «Kapital Bank»ın Baş Ofisində açılmış (012) 498-84-52 nömrəli «Qaynar xətt»ə və emanetler@kapitalbank.az ünvanına daxil olan sorğuların cavablandırılması mütəmadi qaydada davam etdirilir.

Bankın www.kapitalbank.az saytında sırf fərdi birdəfəlik ödəmələrlə bağlı xüsusi bölmə yaradılıb. Burada vətəndaşlar fərdi birdəfəlik ödəmələrə dair qanunvericilik sənədləri ilə tanış ola və onları maraqlandıran suallara cavab tapa bilərlər: «Bölmədə yerləşdirilmiş kalkulyator vasitəsilə 1 yanvar 1992-ci il tarixinə keçmiş Əmanət Bankında olan əmanət qalığına əsasən, fərdi birdəfəlik ödəmə məbləğini hesablamaq mümkündür. Bölmədə ərizə formaları da yerləşdirilib ki, formanı çap edərək əvvəlcədən doldurub digər sənədlərlə birgə məntəqəyə hazır şəkildə gətirmək vətəndaşların əlavə vaxt itkisini aradan qaldıracaq. Bölmədə məntəqələrin dislokasiya cədvəli də verilib. Bu cədvəldən istifadə etməklə əmanətçilər əmanət kitabçasındakı kassa nömrəsinə əsasən, fərdi birdəfəlik ödəməni almaqdan ötrü «Kapital Bank»ın hansı məntəqəsinə müraciət etməli olduğunu asanlıqla müəyyənləşdirə bilərlər. Eyni zamanda, kassa nömrəsini «Kapital Bank»ın saytında yaradılmış «Öz məntəqəni tap» bölməsinə daxil etməklə məntəqənin dəqiq ünvanını interaktiv xəritə üzərində də tapmaq mümkündür», - müsahibimiz bildirdi.

Mətbuat katibi sonda qəzetimiz vasitəsilə vətəndaşlara müraciət edərək vaxtla bağlı narahatlığa heç bir əsas olmadığını vurğuladı: «7 ay ərzində hər kəs öz sənədlərini banka təqdim edə biləcək. Sadəcə olaraq, ilk günlər hamının kütləvi şəkildə müraciət etməsi müəyyən növbələrə səbəb olmasın deyə, vətəndaşlarımızın daha uyğun bir vaxt seçmələri arzuedilən olardı».

**AYTƏN**

# E-hökumət mövzusunda tədbir keçirilmişdir

Bu günlərdə Estoniya Respublikasının paytaxtı Tallinn şəhərində Estoniya Şərq Tərəfdaşlığı Mərkəzi tərəfindən «e-hökumət» mövzusunda tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının müxtəlif dövlət qurumlarından 14 nümayəndə iştirak etmişdir.

Tədbirdə e-hökumətin siyasəti, elektron xidmətlər və s. elektron idarəçilik məsələlərində balans yaradılması geniş müzakirə edilmişdir. Mühazirələr zamanı elektron səsvermənin müxtəlif illərdə artım tempi, həmçinin elektron imza və onun üstünlükləri və texniki göstəriciləri barədə məlumat verilmişdir.

Çıxış edənlər elektron şəxsiyyət vəsiqəsinin üstünlüklərindən, təhlükəsizliyindən bəhs etmişlər. Təlimin sonunda keçirilən müzakirələrdə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən www.e-taxes.gov.az saytında təqdim olunan e-xidmətlər barədə məlumat verilmişdir. Vergilər Nazirliyini bu tədbirdə İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin İqtisadi təhlil idarəsinin İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin dövlət vergi müfəttişi Elşən Hüseynov təmsil etmişdir.

# Kiçik və orta sahibkarlığın inkişafı üçün səmərəli potensial

*Françayzinq anlayışı Azərbaycan mühiti üçün yenidir və cəmiyyət tərəfindən hələ ki, tam qavranılmayıb. Buna görə mövzunu şərh etmək üçün Azərbaycan Françayzinq Assosiasiyasının (AFA) prezidenti Elşən Musayevə müraciət etdik.*

***- Elşən müəllim, françayzinqin mahiyyəti, ölkədə biznesin inkişafı üçün nəticələri və üstünlükləri haqqında məlumat verməyinizi xahiş edirik...***

- Hüquqi cəhətdən françayzinq konsesiya müqaviləsidir. Bəzən françayzinq hüquqi ədəbiyyatda brendin icarəsi də adlandırılır. Françayzinq bir ailədir və bura daxil olmaq üçün giriş haqqı, ümumi dövriyyədən isə ildə müəyyən məbləğdə royalti ödənilir. Bütün bu şərtlər françayzinq müqaviləsində öz əksini tapır. Əslində isə françayzinqdə standart icarə haqqı olmur. Françayzinq özündə brend mağazaların, dilerlərin, distribüterlərin açılmasını birləşdirir. Burada brendlə bərabər, personala təlim keçilməsini, bütün şəhərlərdə və ölkələrdə məhsulun analoji keyfiyyətini və servisi ehtiva edən bütöv françayzinq sistemi icarəyə verilir.

Françayzinqlə biznesə başlamaq uğurlu və düzgün addım hesab olunur. Hər hansı ölkədə françayzinqin tətbiqi kiçik və orta sahibkarlığın inkişafına təkan verməklə yanaşı, işsizlik probleminin müəyyən hissəsini həll etmiş olur. İkincisi, bu, vergi daxilolmalarının artmasına müsbət təsir göstərir. Bununla bərabər, ölkədə qazanılan pulların müəyyən hissəsi royalti şəklində xarici ölkəyə ötürülür.

***- Azərbaycan biznesin hansı sahələrində françayzinqdən fayda götürə bilər?***

- Azərbaycanda bu, restoran biznesində çox uğurlu alına bilər. Çünki bu gün Azərbaycan yeməkləri dadına və keyfiyyətinə görə əcnəbilər tərəfindən çox sevilir. «Eurovision» mahnı müsabiqəsi ilə əlaqədar ölkəmizə gələn qonaqlar Bakının gözəlliyi ilə yanaşı, milli yeməklərimizi də öyürlər. Buna görə də Azərbaycanın yemək konsesiyasının hər hansı restoran tipində yaradılması və təqdim olunması ölkəmiz üçün bir neçə məqsədə çatmağı təmin edə bilər: brend hesabına başqa ölkələrdən pul gətirmək mümkündür. İkincisi, bu, Azərbaycan yeməklərini dünyada məşhurlaşdıracaq və heç bir dövlət Azərbaycanın milli yeməklərini öz adlarına çıxa bilməyəcək. Nəhayət, bu sahədə françayzinq ölkənin dünyada tanınmasına səbəb olacaq. Baxın, bu gün italyan psseriyaları dünyada məşhurdur. Niyə Azərbaycanının da belə bir mətbəx brendi olmasın?!

***- Hansı şirkətlər françayzi hesab olunur və françayzinq müqaviləsində françayziyə hansı tələblər nəzərdə tutulur?***

- Hər brend françayzinq yolu ilə açılan brend sayıla bilməz. Onların bir qismi təmsilçilik və ya müqavilə əsasında açıla bilər. Hər françayzinqin özünün konsesiyası var. Əgər françayzinq alan ilkin mərhələni uğurla keçirsə, ona sənədlər toplusu verilir və bu sənədlərdə bütün standartlar nəzərdə tutulur. Buraya maliyyə tələbləri, loqotipə olan tələblər və s. daxildir. Onların hamısı eyni formada işləməlidir. Lakin bu heç də françayzinq alanın hər hansı əlavələr etmək hüququnun olmaması anlamına gəlməməlidir. Məsələn, Hindistanda dünyada məşhur «Macdonald's» hamburqerləri mal ətindən hazırlanmır, çünki bu ölkədə həmin heyvanlar dini etiqadlara görə müqəddəs sayılır.

Əlavə şərtlər françayzinq götürülməmişdən öncə tərəflər arasında müzakirə olunur və əgər razılıq əldə edilirsə müqaviləyə daxil edilir. Lakin elə standart tələblər var ki, onlar dəyişməz olaraq qalır.

***- Azərbaycan Françayzinq Assosiasiyasının (AFA) fəaliyyəti barədə nə deyə bilərsiniz?***

- AFA 2007-ci ildə Xəzər İnvestisiya Mərkəzi ilə Bakı Hüquq Mərkəzi tərəfindən yaradılmışdır. Assosiasiyanın beynəlxalq səviyyədə əməkdaşlığı güclüdür, Baltik ölkələri, Yunanıstan, Türkiyə Françayzinq assosiasiyaları ilə müqavilə imzalanmış, Almaniya Françayzinq assosiasiyası ilə əlaqələr qurulmuşdur. Bundan başqa, Azərbaycan, Türkiyə, Bolqarıstan, Ukrayna daxil olmaqla Qara dəniz Françayzinq Federasiyası yaradılmışdır.

Lakin ölkə daxilində görüləsi işlərimiz çoxdur, çünki Azərbaycan cəmiyyətinin françayzinq haqqında məlumatı azdır. Buna görə françayzinqin mahiyyəti, ilk növbədə, biznesmenlər tərəfindən tam qavranılmalıdır. Bundan başqa, məşhur brendləri ölkəyə gətirməklə bərabər, Azərbaycan brendlərinin də dünyada tanıdılmasına ehtiyac var. Buna görə ölkədə françayzinq haqqında vahid qanunun hazırlanmasına ehtiyac duyulur. Əgər bu, iş adamlarına ətraflı izah olunarsa, əminəm ki, iri market sahibləri öz bizneslərini məhz bu yolla genişləndirməyə çalışarlar. Çünki hazırda kiçik marketlər olduqca çoxdur və belə marketlərdə kifayət qədər servis, qiymət, keyfiyyət problemləri müşahidə olunur. Halbuki françayzinq yolu ilə daha yüksək səviyyəli marketlər açmaq mümkündür.

***- Azərbaycanda françayzinqin inkişafı üçün hansı tədbirlərin görülməsini zəruri hesab edirsiniz?***

- Françayzinqin Azərbaycana gətirilməsi üçün stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir. Ölkəmizdə kifayət qədər iri ticarət mərkəzləri açılır və onların vasitəsilə ölkəyə çoxlu brendlər gətirilir. Bu prosesə dövlət tərəfindən ciddi nəzarət edilməlidir. Bu gün iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun inkişafı fonunda françayzinqin böyük potensiala malik olduğunu görürük. Bu, şirkətlərin rəqabətə davamlılığına, keyfiyyətli insan ehtiyatlarının yetişməsinə müsbət təsir göstərə bilər.

Dünya indi çox tez dəyişir. Məsələn, cəmi üç ildir yaradılan «Appel Store»nin büdcəsi bir çox ölkənin büdcəsindən çoxdur. Buna görə də Azərbaycanda biznes inkubatorlarının, texnoparkların yaradılmasına, ölkəyə yeni texnologiyaların gətirilməsinə ehtiyac var. Ölkədə françayzinqin inkişafı üçün iri biznesmenler hər hansı brendin master franşizasını gətirib hissə-hissə onu kiçik sahibkarlara paylaya bilərlər ki, bununla da ölkədə şəbəkə təmin olunar.

Hər hansı brendi yaratmaq və Avropa bazarına cıxarmaq üçün avrokod alınmalıdır. Avrokodun alınması üçün isə, ilk növbədə, keyfiyyət təmin edilməlidir və bu, xaricilər üçün deyil, özümüz üçün edilməlidir. Müasir texnologiyanın imkanlarından istifadə etməklə müxtəlif işlər görmək mümkündür. Texnoloji transfer deyilən bir anlayış var: texnologiya hər bir ölkənin mentalitetinə, iqtisadi və coğrafi şəraitinə uyğunlaşdırılır.

11 iqlim zonasından 9-u Azərbaycanda var. Françayzinqi kənd təsərrüfatından tutmuş istənilən sahədə inkişaf etdirmək mümkündür. Bu, kiçik ərazisi olan ölkə üçün böyük potensialdır.

Məhz bu imkanlardan istifadə edərək Azərbaycanda françayzinqi inkişaf etdirmək mümkündür. Bu sahədə AFA üzərinə düşən bütün vəzifələri yerinə yetirməyə hazırdır.

**Arzu İBRAHİMOVA**

# Vergi orqanlarından xəbərlər

May ayının 24-də Bakı şəhərindəki 46 saylı orta məktəbin 5-8-ci sinif şagirdləri arasında «Nağdsız ödənişlərin əhəmiyyəti» mövzusunda rəsm müsabiqəsi keçirilmişdir. Müsabiqənin nəticələrinə görə, rəsm əsərləri təqdim etmiş üç məktəbli - Qaratel Əliyarzadə (birinci yer), Rəşidə Adıgözəlova (ikinci yer), Sahib Quliyev (üçüncü yer) qalib seçilərək **Bakı Şəhər Vergilər Departamentinin** Vergi ödəyicilərinə xidmət idarəsi tərəfindən mükafatlandırılmışdır. Müsabiqənin digər iştirakçılarına isə hədiyyələr təqdim olunmuşdur.

**3 saylı Ərazi Vergilər İdarəsinin** Vergi ödəyicilərinə xidmət şöbəsi tərəfindən 2011-2012-ci dərs ilində şagird və müəllimlərlə vergilər mövzusunda 62 treninq-görüş keçirilmiş, məktəblilər üçün nəzərdə tutulmuş «Vergilərin əhəmiyyəti və ya yeddi nağıl axşamı» və «Vergilər» dərs vəsaitlərinin tədrisinin vəziyyəti, verilən biliklərin şagirdlər tərəfindən mənimsənilmə səviyyəsi və digər məsələlər müzakirə edilmişdir.



2012-ci ilin may ayının 8-dən 15-i tarixinədək vergilər sahəsində bilik səviyyəsinin öyrənilməsi məqsədilə Quba, Qusar, Xaçmaz və Şabran rayonlarının 28 orta məktəbini əhatə etməklə 252 şagird arasında müsabiqə keçirilmişdir.

Müsabiqə test üsulu ilə 3 yaş qrupu üzrə - 3-5, 6-8 və 9-11-ci siniflər arasında keçirilmiş və hər yaş qrupu üzrə qaliblər müəyyən edilmişdir.

Müsabiqənin sonunda qalib gələn şagirdlərə diplomlar və qiymətli hədiyyələr təqdim edilmişdir.

**5 saylı Ərazi Vergilər İdarəsinin** əhatə dairəsində yerləşən Salyan rayonunda vergi ödəyiciləri ilə görüş keçirilmişdir. Görüş Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı»nın 12-ci bəndində nəzərdə tutulmuş «Sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi», eləcə də «İnsan hüquqları aylığı» mövzusuna həsr olunmuşdur. Vergi ödəyicilərinin diqqətinə çatdırılmışdır ki, Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmiş, Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxaraq bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir. Ölkə Konstitusiyasında, respublikamızın tərəfdar çıxdığı beynəlxalq sənədlərdə əks etdirilmiş insan hüquq və azadlıqları əsas meyar kimi rəhbər tutulmuş, Azərbaycan Respublikasının normativ hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi barədə Prezident İlham Əliyevin tövsiyələri ardıcıl şəkildə həyata keçirilmiş və vergi ödəyicilərinin hüquq və mənafelərinin müdafiəsi Vergi Məcəlləsinin müvafiq maddələrində öz əksini tapmışdır.

Tədbirin sonunda vergi ödəyicilərini maraqlandıran məsələlərə aydınlıq gətirilmiş, suallar cavablandırılmışdır.

**13 saylı Ərazi Vergilər İdarəsində** ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu il dönümünə həsr olunmuş «Hər bir vətəndaş vergi ödəməkdən şərəf duymalıdır» mövzusunda inşa müsabiqəsi keçirilmişdir. Müsabiqədə Zaqatala, Balakən və Qax rayonlarında yerləşən məktəblərin şagirdləri iştirak etmiş, qalib gəlmiş şagirdlər diplom və hədiyyələrlə mükafatlandırılmışlar.

**Ağdam Rayon Vergilər Şöbəsi** tərəfindən Quzanlı qəsəbəsində vergi ödəyiciləri ilə görüş keçirilmişdir. Sahibkarların məlumatlandırılması və maarifləndirilməsi məqsədilə təşkil olunmuş tədbirdə vergi ödəyicilərinin hüquq və vəzifələri, əlverişli vergi mühitinin yaradılması, vergi sistemində həyata keçirilən yeniliklər, o cümlədən onlayn rejimdə vergi ödənişlərinin və digər prosedurların həyata keçirilməsi qaydaları barədə ətraflı məlumatlar verilmişdir. Şöbənin rəisi Valeh Qasımov ölkəmizdə nağdsız hesablaşmaların tətbiqi istiqamətində görülən işlərdən, o cümlədən POS-terminalların quraşdırılması, nağdsız ödənişlərin üstünlükləri, plastik kartlardan və digər müasir elektron ödəniş xidmətlərindən istifadə qaydaları haqqında geniş məlumatlar vermişdir.

Görüş zamanı özəl vergi xidməti göstərən şəxslərin fəaliyyətinə nəzarətin artırılmasının zəruriliyi vurğulanmışdır. Sonda vergi ödəyicilərini maraqlandıran məsələlər ətraflı izah olunmuş, Vergilər Nazirliyi tərəfindən hazırlanan bukletlər tədbir iştirakçılarına paylanılmışdır.



Akif Musayev
Azərbaycan Respublikası Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi

Rakurs

## Vergi siyasətinin əsas istiqamətləri

Son illər yüksək iqtisadi artım göstəricisinə görə dünya ölkələri arasında ön sıralarda qərarlaşan Azərbaycan iqtisadiyyatının inkişafına paralel olaraq aparılan kompleks vergi islahatları, həyata keçirilən vergi siyasəti respublikanın vergi sisteminin inkişafının keyfiyyətcə yeni mərhələyə çıxmasına imkan vermişdir.

Qeyd etmək lazımdır ki, dövlətin vergi siyasəti vergitutma sahəsində konkret məqsədə çatmaq üçün vergilər vasitəsilə manipulyasiyanı (istehsal həcminin artırılması və məşğulluğun təmin olunması və ya inflyasiya səviyyəsinin azaldılması və s.) nəzərdə tutur. Dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən olan fiskal siyasətin tərkib hissəsi olmaqla vergi siyasəti vergi sisteminin formalaşması və dəyişməsini nəzərdə tutan vergilərin növlərini, həmçinin hər bir verginin dövlət büdcəsinin formalaşmasındakı rolunu, vergilərin dərəcələrini və diferensiasiyasını, vergi güzəşt, imtiyaz və kreditlərini, vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi mexanizmini müəyyən edir.

Vergi siyasəti sahəsində aparılan bir çox empirik tədqiqatların nəticələri göstərir ki, bu və ya digər ölkənin iqtisadi inkişafı iqtisadiyyatın vergi yükünün səviyyəsindən asılıdır. Bununla yanaşı, ölkədə siyasi sabitlik səviyyəsi də vergi yığımından asılıdır. Siyasi hakimiyyətin zəifləməsi ərəfəsində vergi borcları artır və dövlət öz funksiyalarını həyata keçirmək üçün maliyyə təminatında çatışmazlıqla üzləşir. Vergi yığımının səviyyəsi isə ölkənin iqtisadi inkişaf səviyyəsindən, iqtisadiyyatın strukturundan, əhalinin iqtisadi bilik səviyyəsindən, təkmilləşmiş mühasibat uçotu və vergi qanunvericiliyinin imkanlarından istifadə səviyyəsindən, əhalinin qanuna əməletmə meyilliliyindən, ölkədə formalaşan vergi mədəniyyəti və vergiödəmə ənənələrindən asılıdır.

Beynəlxalq təcrübədə yuxarıda qeyd olunan sahələr üzrə önəmli məsələlərdən biri kimi vergi qanunvericiliyinin və inzibatçılığının sadəliyinə çox böyük əhəmiyyət verilir. Lakin maksimal sadə vergi sisteminə yönəlmiş vergi siyasətinin formalaşdırdığı gəlirlərin yenidən bölüşdürülməsi mexanizmi ictimai təminatın optimal səviyyəsi və s. ilə bağlı məqsədlərə çatmağa imkan vermir. Xüsusi halda nisbətən sadə vergi sistemində vergilərdən gəlirlərin yenidən bölüşdürülməsi aləti kimi istifadə etmək mümkün olmur.

Formalaşma və həyata keçirilmə xüsusiyyətlərindən asılı olaraq, təcrübədə vergi siyasətinin iki istiqaməti fərqləndirilir.

- diskriminasiya xarakterli vergi siyasəti;
- qeyri-diskriminasiya xarakterli vergi siyasəti .

İdeal cəmiyyət olmadığı kimi, diskriminasiyasız vergi sistemi, o cümlədən vergi siyasəti də mümkün deyil. İqtisadi inkişafın səviyyəsindən və mərhələlərindən (keçid iqtisadiyyatı, fövqəladə vəziyyət və s. ) asılı olaraq diskriminasiya xarakterli vergi siyasəti aparıla bilər.

*Vergi siyasəti sahəsində aparılan bir çox empirik tədqiqatların nəticələri göstərir ki, bu və ya digər ölkənin iqtisadi inkişafı iqtisadiyyatın vergi yükünün səviyyəsindən asılıdır. Bununla yanaşı, ölkədə siyasi sabitlik səviyyəsi də vergi yığımından asılıdır*

Lakin vergitutmanın təməl prinsipləri bu halda toxunulmaz qalır. Azərbaycanın Vergi Məcəlləsinin 3-cü maddəsində bu prinsiplər öz əksini tapıb və dövlət tərəfindən iqtisadi proseslərə müdaxilə zamanı bu prinsiplər nəzərə alınır.

Diskriminasiya xarakterli vergi siyasəti dövlətin bilərəkdən iqtisadi proseslərə müdaxilə etməsi, vergi amilləri ilə manipulyasiyasının nəticəsi olaraq meydana çıxır. Bu halda iqtisadi sistemin subyektləri arasında diskriminasiya elementlərinin meydana gəlməsi qaçılmazdır. Belə ki, vergi dərəcələri, vergitutma bazası, vergi güzəşt və imtiyazlarında istənilən dəyişiklik sahibkarlıq subyektlərinin müəyyən qrupunun digərləri qarşısında üstünlük qazanmasına, sahibkarlıq subyektlərinin hərəkətlərinə məhdudiyyət qoyulmasına gətirib çıxarır.

Dövlətin iqtisadi proseslərə müdaxilə səviyyəsi artdıqca, vergi siyasətinin diskriminasiya xarakteri də artır. Ona görə də vergi siyasətinin sabitliyi, sahibkarlıq mühitinin əsas göstəricisidir.

## Bakıda beynəlxalq sərgi keçiriləcək

İyunun 5-8-də Bakıda keçiriləcək 19-cu Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» («Caspian Oil and Gas») sərgi və konfransında dünyanın 32 ölkəsindən 300-dən çox şirkətin iştirak edəcəyi gözlənilir. İştirakçılar arasında Almaniya, BƏƏ, Böyük Britaniya, Rusiya və Türkiyənin milli qrupları vardır. Bu il sərgidə ilk dəfə olaraq Vyetnamı təmsil edən şirkətlər də iştirak edəcəkdir.

Sərgi iştirakçılarının 10 faizini əvvəllər heç vaxt Azərbaycan bazarında fəaliyyət göstərməmiş yeni şirkətlər təşkil edir. Sərgi və konfransın əsas sponsoru «bp-Azərbaycan», «qızıl sponsor»ları Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) və «Andrade Gutierrez» şirkətləridir.

«Bakı Sərgi» mərkəzinin iki pavilyonunda keçiriləcək tədbirdə neft hasilatı və enerji ehtiyatlarının daşınması sahəsində mövcud yeni texnologiyalar nümayiş etdiriləcəkdir. Eyni zamanda, sərgidə regionda həyata keçirilən və gələcəkdə reallaşdırılacaq neft-qaz layihələri də təqdim olunacaqdır.

Sərgi çərçivəsində 19-cu Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» konfransı da keçiriləcəkdir. Konfrans iyunun 6-da «Hilton Baku» otelində başlayacaqdır. Konfransın məruzəçiləri arasında müxtəlif dövlətlərin yüksək rütbəli nümayəndələri və respublikanın neft-qaz sənayesi sahəsinin aparıcı iştirakçıları yer alır.



## Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

### Əmlak vergisi

**Fərdi yaşayış evləri üçün əmlak vergisi necə hesablanmalı və hansı şərtlərlə ödənilməlidir?**

Vergi Məcəlləsinin 197.1.1-ci maddəsinin tələblərinə əsasən, rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri (bundan sonra bina adlandırılacaq) əmlak vergisi üzrə vergitutma obyektidir.

Həmçinin, Vergi Məcəlləsinin 198.1-ci maddəsinin tələblərinə əsasən, fiziki şəxslər əmlak vergisini aşağıdakı qaydada və dərəcələrlə ödəyirlər:

- onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərindən:

- bu dəyər 5000 manatadək olduqda vergi tutulmur, 5000 manatdan çox olan məbləğdən isə 0,1%-lə vergi tutulur.

Vergi Məcəlləsinin 199.3-cü maddəsində qeyd edilmişdir ki, binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, bu Məcəllənin 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisininin məbləği 30 manat azaldılır.

Eyni zamanda, Vergi Məcəlləsinin 200-cü maddəsinə əsasən, binalar üzrə əmlak vergisi müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikası Nazirlər Kabinetinin) müəyyən etdiyi qaydada binaların inventar dəyərinə əsasən hesablanır. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır. Bir neçə sahibi olan bina üzrə əmlak vergisi həmin binanın hər sahibi üçün onun binanın dəyərindəki payına uyğun olaraq, bu Məcəllənin 200.1-ci maddəsində müəyyən edilmiş qaydaya əsasən hesablanır. Bələdiyyələr verginin ödənilməsi barədə tədiyyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər. Cari il üçün verginin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən ödənilir. Fiziki şəxslərdən əmlak vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya bu elektron poçt ünvanlarına
göndərə bilərsiniz: **s.musayeva@taxes.gov.az**, **anar.eliyev@taxes.gov.az**

# Kreditləşmədə bankların rolu

*«Standard & Poor's» reytinq agentliyi Azərbaycanın bank sektorunun ölkələr və sahələr üzrə risklərinin qiymətləndirilməsini (BICRA) yenidən nəzərdən keçirərək ölkəmizi 9-cu qrupdan 8-ci qrupa keçirib. «Biz, həmçinin, bu ölkə üzrə iqtisadi risk göstəricisinin «8»dən «7»yə, sahə riskləri üzrə göstəricisinin isə «9»dan «8»ə keçirilməsinə yenidən baxmışıq», - agentliyin məlumatında deyilir. Agentlik Azərbaycanda hökumətinin milli bank sektoruna dəstək göstərməyə hazır olduğunu da müsbət qiymətləndirir.*

Xatırladaq ki, bir müddət əvvəl Moody's beynəlxalq reytinq agentliyi də Azərbaycanın kredit bazarında bank sektorunun payının artmasını müsbət dəyərləndirmişdi. Agentliyin ekspertlərinin qənaətincə, özəl sektorda əməliyyatların həcminin artması Azərbaycan banklarının mövqeyini möhkəmləndirib və onlara yeni müştərilər cəlb etmək imkanı verib. Nəticədə 2012-ci ilin əvvəlindən bankların maliyyə göstəriciləri, o cümlədən rentabelliliyi və səmərəliliyi nəzərəçarpacaq dərəcədə yaxşılaşıb.

Ekspertlərin fikrincə, ölkə iqtisadiyyatının əsas maliyyə mənbəyi rolunu oynayan bankların inkişaf tempinin yüksək dəyərləndirilməsi bu sektorun böhrandan maksimum az itki ilə çıxmasının nəticəsidir. Hökumətin hələ 2008-ci ildən həyata keçirdiyi antiböhran tədbirləri nəticəsində bank sektorunun üzləşə biləcəyi təhlükələri maksimum dərəcədə neytrallaşdırmaq mümkün olub. İlk növbədə, maliyyə sabitliyinin təmin edilməsi məqsədilə bank sektorunda risklərin çevik tənzimlənməsi həyata keçirilib, korporativ idarəetmə və risklərin idarə olunması sistemlərinə tələblər artırılıb. Bundan başqa, Əmanətlərin Sığortalanması Fondunda qorunan əmanətlərin 5 min manatdan 30 min manata qaldırılması (illik 12% dərəcəsindən yuxarı olmamaq şərtilə) əhalinin depozitlərinin artımına səbəb olub.

«Standard & Poor's» reytinq agentliyi antiböhran tədbirləri çərçivəsində Azərbaycan hökumətinin bank sektoruna ciddi likvidlik dəstəyi göstərməyini də müsbət dəyərləndirir. Makroiqtisadi tendensiyaları nəzərə alan Mərkəzi Bankın uçot dərəcələrini 2008-ci ildəki 15 %-dən bir neçə dəfə aşağı salaraq 2011-ci ildə 5,25%, habelə faiz dəhlizinin aşağı həddinin 1%, yuxarı həddinin 7% səviyyəsində müəyyənləşdirməsi bankların iqtisadi durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Bu addımlar bankların kredit portfelinin artmasına, əmanətlərin həcminin yüksəlməsinə, iqtisadiyyatın kreditləşməsi prosesinin genişlənməsinə təkan verib.



*Bankların iqtisadi fəallığının artmasında Vergilər Nazirliyi, Mərkəzi Bank və digər dövlət qurumlarının elektron ödəniş sisteminin inkişafı, nağdsız dövriyyənin həcminin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər də mühüm rol oynayır*

Bank sektorunun 2012-ci ilin ilk rübü üzrə göstəriciləri də ümumən qənaətbəxşdir. Hesabat dövründə bank sistemində likvidlik qorunub, kreditləşmə və bazar riskləri məqbul səviyyədə idarə olunub. Mərkəzi Bankın məlumatına görə, birinci rübün sonuna bank sektorunun aktivləri 14 milyard 685,9 milyon manat təşkil edib. Bu, Cənubi Qafqaz regionuna aid aktivlərin 60-70%-ni təşkil edir. 2012-ci ilin əvvəli ilə müqayisədə bank aktivləri 739,1 milyon manat və ya 5,3% artıb. Ümumilikdə, son bir ildə bu sektorda artım 16,3% təşkil edib.

Hesabat dövründə kreditlərin maliyyələşməsində fiziki və hüquqi şəxslərin depozitlərinin xüsusi çəkisi də yüksəlib. Bankların qeyri-maliyyə sektorundan cəlb olunmuş depozit bazası isə 4,8% artıb. Uzunmüddətli və milli valyutada əmanətlərin artımı müşahidə olunub ki, bu da banklara ictimaiyyət arasında inamın yüksəlməsinin nəticəsidir. 2012-ci ildə əhalinin əmanətləri 4,3% artaraq 4 milyard 298,9 milyon manata çatıb. Qeyri-rezident fiziki şəxslərin Azərbaycan banklarına yerləşdirdiyi əmanətlərin həcminin 12,1% artması da ölkədəki makroiqtisadi sabitlik amili ilə şərtlənir.

Banklar 2012-ci ilin ilk rübündə sahibkarlıq subyektlərinin kredit tələbatının ödənilməsində, səmərəli biznes layihələrinin maliyyələşməsində də yaxından iştirak ediblər. Hesabat dövründə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə verilmiş kreditlərin 6,4%, hüquqi şəxslərə verilmiş kreditlərin həcminin 1% artması da bunun əyani göstəricisidir. Rüb ərzində iqtisadiyyata kredit qoyuluşları 3% artaraq 9 milyard 993,4 milyon manat təşkil edib.

Bankların iqtisadi fəallığının artmasında Vergilər Nazirliyi, Mərkəzi Bank və digər dövlət qurumlarının elektron ödəniş sisteminin inkişafı, nağdsız dövriyyənin həcminin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər də mühüm rol oynayır. İlin ilk rübündə Milli Ödəniş Sistemində ümumi həcmi 25,707 milyon manat olmaqla, 6,198 milyon əməliyyat aparılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əməliyyatların sayı 2,1 dəfə, ümumi həcmi isə 19% (4 milyard 109 milyon manat) artıb. Nağdsız ödənişlərin 91,4%-i AZİPS sistemi vasitəsilə həyata keçirilib və onun ümumi həcmi 23 506 milyon manat təşkil edib. İnternet vasitəsilə bank xidmətlərindən istifadənin də həcmi genişlənib - rüb ərzində 1,3 milyon manat məbləğində 6,6 min əməliyyat həyata keçirilib. POS-terminallar vasitəsilə aparılan əməliyyatların sayı 831 min, həcmi 108 milyon manat təşkil edib.

İqtisadçı ekspertlərin fikrincə, nağdsız ödənişlərin həcminin genişləndirilməsi məqsədilə ticarət və xidmət obyektlərində POS-terminalların quraşdırılması yaxın perspektivdə ölkə banklarının aktivlərinin sürətli artımına və iqtisadiyyatın maliyyə resurslarının möhkəmlənməsinə təkan verəcək.

**Samir MUSTAFAYEV**

# POS-terminallardan istifadə və istehlakçı hüquqlarının qorunması

## *İqtisadi İnkişaf Nazirliyinin keçirdiyi monitorinqlər zamanı POS-terminallardan istifadədən imtina hallarına rast gəlinməyib*

***Ölkəmizdə POS-terminalların quraşdırılması prosesi son bir neçə ayda daha geniş vüsət alıb və bu istiqamətdə görülən işlərin miqyası mütəmadi olaraq genişlənməkdədir. Bu istiqamətdə əhali arasında maarifləndirmə işləri genişləndirilməklə yanaşı, əlavə stimullaşdırıcı tədbirlərdən də istifadə edilməkdədir.***

POS-terminallardan istifadə zamanı istehlakçı hüquqlarının qorunması ilə əlaqədar məsələlər «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanunun 17-ci maddəsində öz əksini tapıb. İqtisadi İnkişaf Nazirliyi (İİN) yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti bu məqsədlə istehlakçılar arasında həm maarifləndirici tədbirlərə, həm də monitorinqlərə başlayıb.

Dövlət Xidmətinin maarifləndirici və təbliğat xarakterli tədbirlərində istehlakçılara POS-terminallardan istifadə zamanı öz hüquqları barədə lazımi məlumatlar çatdırılır. Nazirlik istehlakçı hüquqlarının qorunmasının mühüm bir istiqaməti kimi ticarət, iaşə, xidmət məntəqələrində və digər obyektlərdə kassa qovşağının olması, bank terminallarının quraşdırılması və ödənişlərin kredit kartları vasitəsilə ödənilməsi imkanlarının yaradılmasına xüsusi diqqət yetirildiyini bildirir.

Qeyd olunduğuna görə, bir çox hallarda istehlakçıların hüquqlarının pozulmasına satıcı, yaxud POS-terminal istifadəçisinin qeyri-peşəkar fəaliyyəti birbaşa təsir göstərir. Təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması təmin olunsa da, ondan istifadədən imtina halları baş verə bilər. Məhz bu məqsədlə son günlər həyata keçirilən davamlı monitorinqlərin məqsədi POS-terminalların quraşdırıldığı ticarət, iaşə,xidmət məntəqələrində imtina hallarının olub-olmamasını və istehlakçıların hüquqlarının pozulub-pozulmamasını müəyyən etməkdir.

Monitorinqlər göstərir ki, ticarət və xidmət obyektlərində quraşdırılmış POS-terminallardan istifadə ilə bağlı müvafiq qurumlar tərəfindən aparılmış maarifləndirmə işləri çox səmərəli olub. Satıcılar POS-terminallardan istifadə və onların istismarı qaydalarına dair lazımi məlumatları yaxşı mənimsəyib, bu qurğuların iş mexanizmini tam bilirlər. Bunun nəticəsidir ki, ticarət, iaşə, xidmət obyektlərində POS-terminalların istifadəsi ilə bağlı istehlakçılar tərəfindən şikayət və yaxud narazılıq hallarına rast gəlinməyib. Müştərilər alış-veriş zamanı ticarət məntəqələrində quraşdırılmış POS-terminallardan geniş şəkildə istifadə edirlər. Kartı olan müştərilər POS-terminallarla alış-verişin daha faydalı olduğunu bildirirlər.

İİN, ümumiyyətlə, istehlakçıların maarifləndirilməsinə böyük əhəmiyyət verdiyini diqqətə çatdırır. Nazirlikdən bildirildiyinə görə, Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən ötən dövr ərzində istehlakçıların maarifləndirilməsi məqsədilə 15 minə yaxın buklet, sahibkarların istehlakçıların hüquqlarının qorunması sahəsində vəzifələrinə dair isə 4 adda 500-dən çox yaddaş kitabçası çap edilərək sahibkarlara və istehlakçılara paylanıb. Burada istehlakçı hüqüqları ilə bağlı bütün məlumatların geniş təfərrüatları öz əksini tapıb.

Dövlət Xidməti POS-terminallardan istifadə zamanı istehlakçı hüquqlarının qorunmasına mal və xidmətlərin keyfiyyəti, ticarət obyektinin əlverişli iş rejimi, təcrübəli və peşəkar heyət, personalın səliqəli uniforma ilə təmin olunması qədər böyük diqqət yetirildiyini bildirir. Plastik kart vasitəsilə alış-veriş zamanı ticarət, ictimai iaşə və digər növ xidmət obyektlərində istehlakçıların hüquqlarının müdafiəsi həyati əhəmiyyət kəsb etdiyinə görə, qurum bu istiqamətdə monitorinqlərin davam etdiriləcəyini bildirir.

**Elbrus CƏFƏRLİ**



# Regionlarda POS-terminalların quraşdırılması davam edir

Nağdsız ödənişlərə keçidin təmin edilməsi istiqamətində Vergilər Nazirliyi ilə Mərkəzi Bank, eləcə də digər banklar tərəfindən həyata keçirilən tədbirlərin böyük hissəsi Bakı şəhərinin payına düşür. Hazırda ölkə üzrə ümumilkdə 27 min 879 obyektdə 33 min 386 aktiv POS-terminal fəaliyyət göstərir. Bakı şəhəri üzrə POS-terminal quraşdırılmış obyektlərin sayı 24 min 977, aktiv terminalların sayı 30 min 361 təşkil edir. Ərazilər üzrə isə 2902 obyektdə 3025 terminal quraşdırılmışdır. Bu şəraitdə qarşıda duran mühüm vəzifələrdən biri regionlarda da POS-terminalların quraşdırılmasının sürətləndirilməsidir və əhalinin geniş kütlələrinin nağdsız ödənişlərə cəlb edilməsidir. Əslində, POS-terminal həm ödəniş kartlarının sahibləri, həm də biznes subyektləri üçün faydalıdır. POS-terminal öz işini müasir standartlar səviyyəsində qurmaq arzusunda olan sahibkarlara bir çox üstünlüklər verir. Belə ki, POS-terminaldan istifadə ödəniş məbləğlərinin dəqiq olmasına və hesablaşmaların rahat aparılmasına, qalıq məbləğin müştəriyə qaytarılması üçün kiçik əskinaslara ehtiyacın yaranmamasına, nağd vəsaitlərlə olan əməliyyatlarda iş yükünün azaldılmasına, o cümlədən mal və xidmətlər üzrə hesablaşmalar zamanı təhlükəsizliyin gücləndirilməsinə, saxta pullarla hesablaşma riskinin aradan qaldırılmasına şərait yaradır.

Vergilər naziri cənab Fazil Məmmədovun əmri ilə təsdiq edilmiş nağdsız ödənişlərin stimullaşdırılması və POS-terminallardan istifadə barədə əhalinin məlumatlandırılması və maarifləndirilməsinə dair Tədbirlər Planının icrası ilə əlaqədar yerli vergi orqanlarında bir sıra işlər görülmüşdür. 5 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Pənah Məmmədovun sözlərinə görə, bu ƏVİ-nin əhatə dairəsində yerləşən Şirvan, Hacıqabul, Neftçala, Saatlı, Salyan və Sabirabad rayonlarında indiyədək 400-ə yaxın POS-terminal quraşdırılmış, vergi ödəyiciləri arasında məlumatlandırma işləri aparılmış, yerlərdə səyyar məlumatlandırma xidmətləri təşkil edilmişdir: «POS-terminal quraşdırılmış ərazilərdəki obyektlərdə həm istehlakçıların, həm də vergi ödəyicilərinin məlumatlandırılması işləri təşkil olunur. Vergi ödəyicilərinə xidmət mərkəzlərinin əməkdaşlarını da bu işlərə cəlb etmək, kütləvi informasiya vasitələrində izahedici məlumatlar vermək, vergi ödəyiciləri və əhali arasında fərdi qaydada söhbətlər aparmaq daha səmərəli nəticələr əldə etmək üçün optimal üsullardır. Ümid edirik ki, aparılan islahatlar və atılan addımlar tezliklə ödənişlər zamanı plastik kartlardan istifadə sahəsində mühüm irəliləyişlərə təkan verəcək.

Görülən işlər nəticəsində əhalinin əsas hissəsinin cəmləşdiyi rayon və kənd yerlərində ödəniş sistemləri və maliyyə xidmətləri infrastrukturunun genişləndirilməsi, regionlarda sosial təminat ödənişlərinin elektron daşıyıcılarda həyata keçirilməsi, kənd yerlərində kommunal xidmətlərlə bağlı ödənişlərin yığımında mövcud olan problemlərin aradan qaldırılmasına nail olunacaqdır. Bütövlükdə respublikada nağdsız ödənişlərə tam keçidin təmin edilməsi ölkə iqtisadiyyatı üçün şəffaf, təhlükəsiz, qabaqcıl texnologiyaya və proqram təminatına əsaslanan və beynəlxalq standartlara cavab verən ödəniş sistemləri infrastrukturunun tamamlanması təmin ediləcək».

**Arzu İBRAHİMOVA**

# Nağdsız ödənişlər: əsas inkişaf hədəfimiz

## Emil Zeynalov: «Bankımızın ödəniş kartları üzrə dövriyyəsində böyük dinamika yaranıb»

*Ölkəmizin kart bazarında yaranmış vəziyyəti təhlil etmək, eləcə də Azərbaycanın ən iri banklarından biri olan «Bank Standard» tərəfindən nağdsız ödənişlərin həcmini artırmaq məqsədilə həyata keçirilən müxtəlif stimullaşdırıcı tədbirlər barədə məlumat almaq üçün bankın Pərakəndə Bank Məhsulları Departamentinin Plastik kartlar şöbəsinin rəisi Emil Zeynalova müraciət etdik.*



***- Emil müəllim, ölkəmizdə nağdsız ödənişlərin artırılması ilə bağlı mövcud vəziyyəti ümumi şəkildə necə qiymətləndirmək olar?***

- Məlum olduğu kimi, dövriyyədəki nağdsız ödənişlərin payının artması maliyyə axınlarının şəffaflığının, vergi bazasının, bank sisteminin likvidliyinin və digər müsbət makroiqtisadi göstəricilərin artmasına şərait yaradır. Statistika Azərbaycanda nağdsız ödənişlərin artım dinamikasını göstərir: 2007-2011-ci illər arası ölkə daxilində POS-terminallarla dövriyyənin həcmi debet kartları üzrə 72% (129 mln. manatdan 223 mln. manatadək), kredit kartları üzrə 86% (92 mln. manatdan 171 mln. manatadək) artıb. 2010 - 2011-ci illər arası ölkə daxilində nağdsız ödənişlərin həcmi POS-terminallar üzrə 67% (64 mln. manatdan 107 mln. manatadək), bankomatlar üzrə isə 34% (219 mln. manatdan 294 mln. manatadək) artıb.

***- Nağdsız ödənişlər bazarının inkişaf etdirilməsi ilə bağlı ölkənin aparıcı banklarından biri kimi «Bank Standard» hansı tədbirlər həyata keçirir? Bankın ödəniş kartları vasitəsilə həyata keçirilən ödənişlərinin dövriyyəsində hansı dəyişikliklər nəzərə çarpır?***

- Azərbaycanın nağdsız ödənişlər bazarının inkişafına təkan verməк əsas fəaliyyət istiqamətlərimizdən biridir. Ötən il kartlarımızla həyata keçirilən nağdsız ödənişləri stimullaşdırmağa yönələn və müştərilər arasında populyarlıq qazanmış üç irimiqyaslı kampaniya həyata keçirmişik. Bu kampaniyalar kart sahiblərinin nağdsız ödənişlərə təşviq edilməsinə yönəldilmişdi. 2011-ci ilin sonunda isə bir il ərzində davam edəcək «Kartla ödə, Apple qazan!» adlı kampaniyaya start verilib. Bu aksiya çərçivəsində hər rüb müştərilərimiz arasında «MacBook Air», «MacBook Pro» noutbukları, «iPad2» planşetləri və «iPhone 4S» mobil telefonları oynanılır. Həmçinin, planlı şəkildə yeni ticarət obyektlərini cəlb etməklə bankın ekvayerinq şəbəkəsinin genişləndirilməsi istiqamətində də işlər aparılır.

Hazırda bizim bankın ödəniş kartları üzrə dövriyyəsində böyük dinamika yaranıb. «Bank Standard»ın kartları vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin artım tempi ümumi bazarın artım tempindən yüksəkdir.

***- Azərbaycanda və MDB məkanına aid digər ölkələrdə kart bazarının inkişaf dinamikasını müqayisə etsək, hansı mənzərənin şahidi olarıq?***

- 2007-2012-ci illər ərzində Azərbaycanda plastik kartların sayı 66% artıb. Bu kartlar arasında kredit kartlarının artım dinamikası debet kartlarının sayının artım dinamikasını nəzərəçarpacaq dərəcədə üstələyir. Kart sayının yaşlı əhaliyə düşən payına görə biz Qazaxıstan və Ukrayna kimi dövlətləri geridə qoymuşuq. Bununla belə, qeyd etmək yerinə düşər ki, kart portfelinin 96%-i debet kartlarının (pensiya və əməkhaqqı kartları) payına düşür. Bunun özü, həmçinin əhalinin maliyyə savadının aşağı olması ümumi kart dövriyyəsində nağdsız ödənişlərin hələ də az paya (2%) malik olması ilə nəticələnir. Müqayisə üçün deyim ki, Rusiya və Qazaxıstanda bu göstərici 15%-ə bərabərdir. Eyni zamanda, son beş il ərzində Azərbaycanda POS-terminal şəbəkəsi 4,7 dəfə artıb (5.309-dan 25.000-dək) və indi 500 nəfərə 1 terminal düşür ki, bu, Qazaxıstanın göstəricinə yaxındır. Türkiyənin kart bazarına gəlincə isə o, bütün göstəricilər üzrə (adambaşına düşən kartların sayı - 1,8; kredit kartlarının payı - 40%; nağdsız ödənişlərin payı - 50%; 1 POS-terminalın əhatə etdiyi əhali sayı - 35 nəfər) MDB ölkələrini geridə qoyur. Lakin bu göstəricilər bizim üçün o qədər də əlçatmaz deyil.

***- Kartlardan istifadənin miqyasının genişlənməsi üçün hansı güzəştləri tətbiq edirsiniz?***

- Kart biznesinin inkişafı «Bank Standard»ın əsas fəaliyyət istiqamətlərindən biri olaraq qalacaq. Nağdsız ödənişlər kart biznesinin əsas təməl prinsiplərindən biri olduğu üçün biz bundan sonra da vətəndaşların və ticarət şəbəkələrinin stimullaşdırılmasına yönələn proqramları həyata keçirməkdə davam edəcəyik. Bankın yaxın vaxtlarda istifadəyə veriləcək öz prossesinq mərkəzinin unikal imkanları bu məqsədə xidmət edəcək. Bununla «Bank Standard» həm də İnternet bankçılıq, mobil bank, bankomatlar şəbəkəsi və s. kanallar vasitəsilə əhaliyə göstərilən elektron xidmətləri inkişaf etdirə biləcək.

Biz həmişə kart məhsullarımızın müştərilər üçün əlçatan olmasına çalışırıq. Buna bizim kartların qiymətinə nəzər yetirdikdə əmin olmaq mümkündür. Bundan əlavə, biz vaxtaşırı plastik kartları endirimlə əldə etməyə imkan verən kampaniyalar da keçiririk. Sonuncu endirim kampaniyasını bu ilin mart ayında keçirdik. Həmin kampaniya çərçivəsində müştərilərimiz İSİC və GəncKart plastik kartlarını güzəştli qiymətlə əldə etmək imkanı qazandılar. Aprel ayında tələbələrə ünvanlanmış «İSİC kartla uğurlu gələcək» proqramına da start verildi və proqram çərçivəsində tələbələr bankın İSİC kartının 20% endirimlə əldə edə bilərlər. Bu gün plastik kartlar əksər tələbələr arasında bankomatlardan nağd pul çıxarmaq vasitəsi kimi qəbul olunur. Keçirdiyimiz aksiya isə tələbələri plastik kartların imkanlarından hərtərəfli yararlanmağa sövq edir.

***- Bankınız POS-terminalların quraşdırılması sahəsində hansı işləri görür?***

- Cari ilin may ayınadək «Bank Standard»ın aktiv POS-terminallarının sayı 1808 ədəd təşkil edirdi. Bu il POS-terminalların quraşdırılmasına daha böyük əhəmiyyət verilib, fevral ayından bəri 1149 POS-terminal quraşdırmışıq və bu işlər davam etdirilir. İndi hər ay bankımız, orta hesabla, 300-ə yaxın yeni terminal istifadəyə verir.

***- Vətəndaşların POS-terminallardan istifadə etməsini stimullaşdırmaq üçün hansı tədbirlər həyata keçirilir?***

- Biz əminik ki, ticarət şəbəkələrinin və əhalinin stimullaşdırılması və kredit kart bazasının getdikcə genişlənməsi nağdsız ödənişlərin artmasına təkan verəcək. Bankımız tərəfindən həyata keçirilən və indinin özündə də davam edən stimullaşdırıcı kampaniyaların əksəriyyəti məhz nağdsız ödənişlərin artırılmasına yönəlib. Məsələn, hazırda davam edən «Kartla ödə, Apple qazan» aksiyasının şərtlərinə görə, ticarət və ictimai iaşə şəbəkələrində bankın kartları ilə POS-terminallar vasitəsilə həyata keçirilən ödənişlərin hər 10 şərti vahidi (məsələn, 10 AZN, 10 USD, 10 EUR və s.) kart sahibinə 1 lotereya şansı verir. Belə stimullaşdırıcı aksiyaların keçirilməsi və POS-terminal şəbəkəsinin genişləndirilməsi «Bank Standard»ın kart biznesinin inkişafına münbit şərait yaradır. Yaxın gələcəkdə müştərilərimizə güzəştlər təqdim edən və yerli ticarət və ictimai iaşə şəbəkələrindən ibarət klubun yaradılmasını planlaşdırırıq. Bununla yanaşı, əməkdaşlıq etdiyimiz ödəniş sistemlərinin öz kart sahibləri arasında keçirdiyi endirim aksiyaları da nağdsız ödənişlərin artımına təkan verir.

***- Nağdsız ödənişlər bazarının daha da inkişafı üçün hansı təklifləriniz var?***

- Nağdsız ödənişlərin populyarlaşması üçün plastik kartların istifadəsini əngəlləyən maneələr aradan qaldırılmalıdır. Əsas maneə biznesi nağdsız ödənişlərə üstünlük verməyə sövq edən qanunverici bazanın olmamasıdır. Hazırda Vergilər Nazirlyi və Mərkəzi Bank tərəfindən birgə hazırlanmış stimullaşdırıcı və inzibati tədbirlər paketi razılaşdırma mərhələsindədir. Bu tədbirlər paketinin hazırlıq mərhələsində, bizim bank da daxil olmaqla, bank sektorunun nümayəndələri ilə aktiv məsləhətləşmələr aparılıb və biz öz təkliflərimizi vermişik. Şübhə etmirəm ki, belə tədbirlər həm nağdsız ödənişlərin, həm də ümumilikdə kart bazarının inkişafına təkan verəcək və bizi nağdsız ödənişlərin hökm sürdüyü cəmiyyətə daha da yaxınlaşdıracaq.

**Elbrus CƏFƏRLİ**



Mehdi Babayev

«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Baxış bucağı

# Məcburi auditdən keçməyən təsərrüfat subyektləri

Hörmətli oxucular, auditdən keçməyən istənilən təşkilat barədə belə bir rəy formalaşa bilər ki, onlar ilk növbədə öz maliyyə hesabatlarında şəffaflığın təmin olunmasında maraqlı deyil. Hazırda ictimai əhəmiyətli qurumlarda, sığorta təşkilatlarında, banklarda, bank olmayan kredit təşkilatlarında, investisiya fondlarında, bələdiyyələrdə, elektrik enerjisi, qaz və su təminatı ilə məşğul olan iri müəssisələrdə məcburi auditor yoxlamalarının aparılması tam təmin olunmuşdur. Lakin Azərbaycanda məcburi auditdən yayınan təsərrüfat subyektlərinin böyük hissəsinin məhdud məsuliyyətli cəmiyyətlər (MMC) olduğu məlumdur.

«Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin ikinci abzasının ikinci cümləsində göstərilir ki, qanuna görə öz maliyyə hesabatlarını dərc etdirməli olan təsərrüfat subyektləri üçün, habelə qanunla bilavasitə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan audit məcburidir. Burada qanunla bilavasitə nəzərdə tutulmuş hallardan biri də Azərbaycan Respublikası Mülki Məcəlləsinin 91.4-cü maddəsinin tələbidir. Bu maddəyə görə, məhdud məsuliyyətli cəmiyyət illik maliyyə hesabatının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak mənafeləri ilə cəmiyyətə və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir (kənar audit).

Hazırda məhdud məsuliyyətli cəmiyyətlərin əksəriyyətini təşkil edən kiçik və orta sahibkarlıq subyektləri gəlirlərinin az olmasını və çoxçeşidli olmayan fəaliyyətinə nəzarəti təkbaşına rahat idarə edə biləcəyini düşünərək məcburi auditdən yayınmağa üstünlük verir. Belə düşünən MMC-lər qanunlarımızın tələbini pozmuş hesab edilirlər. Belə ki, «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişiklik və əlavələr edilməsi barədə № 65-IVQD, 11 fevral 2011-ci il tarixli Azərbaycan Respublikasinin Qanununa görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavə edilmiş 247.3-cü «məcburi auditdən yayınma» maddəsinə əsasən «Qanunla nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə - vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək miqdarda, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə edilir».

Auditə məcburedilmənin effektli olmasına inanmaq olar. Ancaq hazırkı vəziyyətdə auditə məcburedilməni auditin mahiyyətini və əhəmiyyətini bilməyənə «özünü yoxla» tapşırığının verilməsinə bənzətmək də mümkündür. «Məcburi auditdən yayınanlara qarşı sərt tədbirlər görüləcək!» deməklə məcburi auditə cəlb olunmaya meyillənmənin artmayacağını da istisna etmək olmaz. Təəssüflə qeyd etməliyəm ki, hələ də sahibkarlarda «inzibati tələb əsasında proseslərə qoşulma» sindromu vardır. Bundan yaxa qurtarmaq üçün sahibkarların audit haqqında maariflændirmə işlərinin gücləndirilməsinə böyük ehtiyac vardır.

Hazırda özəl sektorun xüsusi çəkisinin artırılması irəlidə gedən məsələlərdəndir və ölkəyə daxil olan xarici investisiyalar artmaqda davam edir. Xarici investorlar və ya bizimlə birgə təkliflər əsasında fəaliyyət göstərmək istəyən xarici iş adamları, xarici müşərilərimiz və ya malsatanlarımız dünyada qəbul olunan nəzarət modelinə üstünlük verirlər. Bu, AUDİTDİR.

Artıq sahibkarlar bilməlidirlər ki, Azərbaycanda auditin beynəlxalq standartları tətbiq olunur və ölkəmizdə fəaliyyət göstərən auditorlar maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun yoxlanılmasını və hesabat (rəy) hazırlanmasını tam həyata keçirə bilərlər.

Əldə edilmiş məlumatlara görə Azərbaycanda hər il müəssisə və təşkilatların yalnız 10-15 faizi audit yoxlamasından keçir. Bunun çox aşağı rəqəm olduğu aydındır. Ona görə də məcburi auditdən keçməyən təsərrüfat subyektlərinin müəyyənləşdirilməsi ilə bağlı tədbirlərin görülməsi istisna olunmamalıdır.

Vergi ödəyicilərinə Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 16.1.4-ci maddəsinə görə vergi orqanlarına qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada, auditor tərəfindən yoxlanılması nəzərdə tutulduğu hallarda isə auditor rəyi əlavə edilməklə vergi hesabatını təqdim etmək vəzifəsi qoyulmuşdur. Hesabatlarını elektron qaydada göndərən vergi ödəyiciləri auditor rəyinin (hesabatının) surətini zərfin içərisinə qoyulmuş məktub şəklində və ya rəyin skan olunmuş formasını elektron kargüzarlıq imkanlarından istifadə etməklə göndərilməsini təmin etməlidir.

Təsərrüfat subyektlərinin sahibləri düşünə bilərlər ki, auditor yoxlamasından keçmədiyinə görə vergi orqanları onları cərimələməyəcəklər. Məsələ yalnız cərimələnməkdə deyil. Vergi orqanı da maliyyə hesabatlarının istifadəçilərindən biridir. İstənilən yolla məcburi auditin keçirilməsinin qarşısını almaq istəyən rəhbər işçilər artıq başa düşməlidirlər ki, onların rəhbərlik etdikləri müəssisələr məcburi auditin obyekti sayılırsa, deməli, müəssisə müəyyən meyarlar çərçivəsində yaşadığımız cəmiyyət üçün əhəmiyyətlidir və siz biznesinizin yuxarı səviyyələrinə doğru istiqamətlənmisiniz. Bu vəziyyətdə məcburi auditdən keçərək əldə etdiyiniz müsbət rəy vergi orqanları tərəfindən sizin «keyfiyyət nişanınız» kimi qiymətləndirilir. Yoxlama və nəzarət funksiyasını yerinə yetirən orqanlar haqlı olaraq düşünməyə başlayırlar ki, sizin müəssisənin uçot sistemi yaxşı qurulmuşdur, maliyyə və vergi hesabatları göstəricilərinə etibar etmək olar, vergilər üzrə hesablaşmalar düzgün aparılır. Bu da o deməkdir ki, sizin vergi orqanları ilə mübahisə və münaqişə yaranması riskiniz yoxdur.

Hörmətli oxucular, «özümə qarşı müsbət fikir formalaşdırmaq üçün auditdən keçmək» kimi düşünənlərin qazandığının «onsuz da cərimələnməyəcəm» kimi düşünərək auditdən yayınanların qazandığından çox olmasını başa düşməyin artıq vaxtıdır.

# Kosmik sənayenin inkişafı e-xidmətləri genişləndirəcək

**Azərbaycanın ilk telekommunikasiya peyki - «Azərspace»in orbitə çıxarılması yönündə hazırlıq tədbirləri davam etdirilir. Mütəxəssislərin fikrincə, yaxın perspektivdə orbital mövqeyə yiyələnəcək respublikamız informasiya-kommunikasiya sahəsində bir sıra layihələri gerçəkləşdirmək imkanı qazanacaq. Bu yenilik Azərbaycanın etibarlı informasiya təhlükəsizliyi sisteminin formalaşmasını təmin etməklə yanaşı, ümumən telekommunikasiya sisteminin inkişafına ciddi təkan verəcək.**

Hazırda fəzada orbital mövqeyə malik 30-a qədər dövlət informasiyaların qitələrarası ötürülməsi və yayımına nəzarət etməklə yanaşı, peyk icarəsindən külli miqdarda gəlir götürür. Respublikamız obyektiv səbəblərlə bağlı olan bu asılılığı aradan qaldırmaq, informasiya-kommunikasiya resurslarına tələbatını tam ödəmək üçün telekommunikasiya peyklərinin hazırlanmasına və orbitə çıxarılmasına ciddi əhəmiyyət verir. Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan informasiyanın ötürülməsi və yayımı sahəsində regional liderlik mövqeyini açıq nümayiş etdirir.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 17 avqust tarixli sərəncamı ilə təsdiqlənmiş «Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı» bu sahənin inkişafına geniş imkanlar açıb. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün 2010-cu il 3 may tarixdə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində səhmləri dövlətə məxsus «Azərkosmos» Açıq Səhmdar Cəmiyyəti yaradılıb. Qurum ötən iki ildə telekommunikasiya peykinin, o cümlədən məsafədən zondlama peyklərinin orbitə çıxarılması, idarə edilməsi və istismarı sahəsində tədbirlər həyata keçirib.

«Azərkosmos» Səhmdar Cəmiyyətinin sədr müavini Məzahim Quliyevin bildirdiyinə görə, Beynəlxalq Telekommunikasiya İttifaqı Azərbaycana milli peykin fəzaya çıxarılması üçün planlı zolaqda 2 orbital mövqe verib. Lakin planlı zolaq peykin yalnız ölkə daxilində istifadəsinə imkan verdiyindən, Azərbaycan məhz plansız zolaqda orbital mövqe qazanmaq istəyindədir. Hələlik bu sahədə ləngiməyə yol verməmək üçün Malayziyanın «Measat» şirkəti ilə müqavilə imzalanıb. Müqaviləyə əsasən, Azərbaycanın ilk telekommunikasiya peykinin məhz Malaziyaya məxsus orbital mövqeyə çıxarılması planlaşdırılır.

Məzahim Quliyev onu da qeyd etmişdir ki, müvafiq qiymətləndirmələrdən sonra ABŞ-ın «Orbital Sciences Corporation» şirkəti Azərbaycan peykinin hazırlanması üzrə tenderin qalibi elan edilib. Raketdaşıyıcı şirkətin müəyyənləşdirilməsi ilə bağlı keçirilən tenderin qalibi isə Fransa «Ariane Space» şirkəti olub. Azərbaycanın ilk telekommunikasiya peyki 2012-ci ilin sonunda bu şirkətə məxsus «Ariane-5» raket daşıyıcısı ilə Fransız Qvineyasının «Kuru» kosmodromundan geostasionar orbitə qaldırılacaq. «Telekommunikasiya peykinin fəzaya buraxılmasından sonra ölkənin bütün ərazisində internet, beynəlxalq telefon danışıqları, televiziya yayımı və peyk xidmətlərinin keyfiyyəti yüksələcək, müvafiq olaraq qiymətlər aşağı düşəcək. Bundan başqa, məsafədən zondlama peyki vasitəsilə xəritəçəkmə, hidrometeorologiya, yerin təkinin öyrənilməsi, geodeziya işlərinin yüksək səviyyədə aparılması mümkün olacaq. Hazırda Azərbaycanın müəyyən ucqar dağlıq yaşayış məntəqələrinə fiber-optik kabellərin çəkilməsi həm rentabellilik, həm də keyfiyyət baxımından sərfəli deyildir. Belə yaşayış məntəqələrində «VSAT» stansiyası quraşdırmaqla az məskunlaşmış əhaliyə peyk üzərindən teleyayım, peyk rabitəsi və internet xidmətləri göstərmək daha rentabelli olacaq», - Məzahim Quliyev bildirir.

«Azərkosmos» Səhmdar Cəmiyyətinin sədr müavini hesab edir ki, neft-qaz ölkəsi olan Azərbaycan milli telekommunikasiya peyki vasitəsilə kəşfiyyat işləri apara biləcək. Onun sözlərinə görə, milli peyk mümkün fövqəladə hallar - daşqınlar, torpaq sürüşmələri, yanğınlar barədə operativ məlumatlar əldə etməyə, hadisə yerindən kosmik çəkilişlər aparmağa, preventiv tədbirlər həyata keçirməyə imkan verəcək. Milli peyk informasiya təhlükəsizliyinin gücləndirilməsini, qlobal informasiya məkanına inteqrasiyanı təmin edəcək. Dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin peyk şəbəkələrinə qoşulma imkanlarının genişlənməsi həm də respublikanın istənilən ucqar bölgəsində elektron xidmətlər çeşidinin genişlənməsinə, o cümlədən POS-terminalların quraşdırılması yolu ilə nağdsız dövriyyənin həcminin artmasına təkan verəcək.

**S.MUSTAFAYEV**

# Azərbaycan ən az xarici borcu olan dövlətlərdən biridir

## *Dövlət büdcəsi kəsirinin ümumi daxili məhsula (ÜDM) nisbəti cəmi 8% təşkil edən Azərbaycan bu göstəriciyə görə dünyada üçüncü yeri tutur*

*2012-ci ilin ilk rübündə ölkəmizin xarici dövlət borcunun ÜDM-ə nisbəti cəmi 7,3% təşkil edib - bu, beynəlxalq meyarlar baxımından olduqca müsbət göstəricidir. Azərbaycan Mərkəzi Bankından bildirilir ki, «G7» ölkələrində dövlət borcunun ÜDM-ə nisbəti 120-150%-ə çatdığı halda, respublikamız adambaşına düşən milli gəlir səviyyəsinə görə dünyanın 100-dən çox ölkəsini qabaqlayır.*

Ekspertlərin fikrincə, əgər dünya dövlətləri əvvəllər, sadəcə, müxtəlif layihələri həyata keçirmək üçün məcburən xarici borclanmaya gedirdilərsə, müasir dövrdə belə vəsaitlər iqtisadi inkişafın maliyyələşdirilməsində əsas mənbələrdən sayılır. Lakin sırf büdcə kəsirinin örtülməsi məqsədilə xarici mənbələrdən müntəzəm şəkildə kreditlərin cəlb edilməsi, həmçinin xarici borcların müəyyən limiti keçməsi təhlükəli hal kimi qarşılanır. Xarici borcun həcminin ixracda 200%-dən, ÜDM-də 40%-dən çox olması böhranlı vəziyyət kimi səciyyələndirilir.

Beynəlxalq maliyyə qurumlarının hesabatları göstərir ki, indi nəinki inkişaf etməkdə olan, hətta inkişaf etmiş bir çox dövlətlərin də xarici borcu idarəolunmaz həddə çatıb. «Bloomberg» agentliyinin ekspertinə görə, 2012-ci ilin əvvəlində dünyanın inkişaf etmiş ölkələrinin ümumi borcu 7,6 trilyon ABŞ dolları təşkil edib. Gürcüstanda xarici dövlət borcunun ümumi daxili məhsula nisbəti 77,7%, İspaniyada 68,5%, Yunanıstanda 160%, İtaliyada 120%, ABŞ-da 100% həddindədir.

***Ölkənin beynəlxalq mövqeyinin möhkəmlənməsi nəticəsində Azərbaycanın strateji valyuta ehtiyatları 2012-ci ilin yanvar-mart aylarında 7% artaraq 43 milyard dolları ötmüşdür ki, bu da 5 milyard dollar civarında olan xarici dövlət borcunu 8 dəfədən çox üstələyir.*** Mərkəzi Bank hesab edir ki, strateji valyuta ehtiyatları respublikanın üçillik əmtəə və xidmət idxalının maliyyələşməsinə kifayət edir. ÜDM-in 70%-i həcmində strateji valyuta ehtiyatlarına malik olması respublikada makroiqtisadi vəziyyətin sabitliyini şərtləndirən əsas amillərdən sayılır. Azərbaycanda adambaşına düşən gəlirin xarici borcla müqayisədə 4,2 dəfə çox olması, adambaşına düşən valyuta ehtiyatlarının həcminin isə 5 min dollar təşkil etməsi davamlı inkişaf üçün etibarlı zəmin formalaşdırır.

Dünya İqtisadi Forumunun ekspertləri hesab edirlər ki, Azərbaycan məcmu maliyyə yığımlarının ÜDM-ə nisbətinə görə dünyada altıncı yeri tutur. Əgər 8 il əvvəl ölkənin tədiyyə balansında kəsir 30% səviyyəsində idisə, hazırda 30%-lik profisit mövcuddur. Ümumilikdə, 2003-cü ildən dövlət investisiyaları 40 dəfə artıb, bu dövrdə investisiyaların ümumi həcmi 32 milyard dolları ötüb, büdcənin 51%-i dövlət investisiyalarının payına düşüb. Ötən səkkiz ildə iqtisadiyyatın üçqat artımı nəticəsində Azərbaycan orta gəlirli ölkələr siyahısına daxil olaraq bu sırada mövqeyini möhkəmləndirib.

«Dövlət borcu haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən, daxili və xarici dövlət borcunun yuxarı hədləri (limitləri) Azərbaycan Respublikasının milli valyutası ilə müəyyənləşdirilir. 2012-ci ildə dövlət büdcəsinin xarici dövlət borcunun yuxarı limiti 2 milyard manat həcmində müəyyənləşdirilib. Ölkənin xarici borclanma səviyyəsinin optimal dəyərləndirilməsi isə büdcə kəsirinin aşağı səviyyəsi ilə bilavasitə bağlıdır. 2012-ci ildə büdcə kəsirinin ÜDM-də 1,3% təşkil edəcəyi gözlənilir və bu da kifayət qədər qənaətbəxş göstərici kimi xarakterizə olunur.

Hökumət xarici mənbələrdən cəlb olunan maliyyə vəsaitlərini büdcə kəsirini örtməyə deyil, müasir infrastrukturun formalaşdırılması yolu ilə investisiya mühitini yaxşılaşdırmağa yönəldir. Qlobal iqtisadi böhranla bağlı bir sıra ölkələrin xarici borclarının pik həddinə çatması onları sosial və investisiya yönümlü layihələri qeyri-müəyyən müddətə təxirə salmaq məcburiyyətində qoyub. Xüsusən də Avropa ölkələrində dövlətin xarici borcunun ödənilməsinin ağırlığı vətəndaşların çiyninə düşür. Müəssisələr bağlanır, işsizlər ordusu yaranır, vergilər artırılır, sosial ödənişlər azaldılır. Azərbaycan isə bunun əksinə olaraq, həmin sahələrə dövlət əsaslı kapital qoyuluşlarının həcmini, sosialyönümlü xərcləri ildən-ilə artırır.

2012-ci ilin ilk rübündə əsas kapitala yönəldilən investisiyaların 64%-i qeyri-neft sektorunun payına düşüb. Ölkə iqtisadiyyatına yatırılan ümumi investisiyaların strukturunda daxili sərmayələrin payının üstünlük təşkil etməsi də diqqətçəkən faktdır. Bunun nəticəsi olaraq, 2012-ci ilin ilk rübündə qeyri-neft sektorunda 7,7%-lik artıma nail olunub. Vergilər Nazirliyinin xətti ilə büdcəyə qeyri-neft-qaz sektoru üzrə 791,7 milyon manat vəsait daxil olub. Eyni zamanda, qeyri-neft-qaz sektoru üzrə daxilolmalar ötən ilin müvafiq dövrünə nisbətən 111,5 milyon manat və ya 16,4% artıb.

Azərbaycan nəinki iri layihələri daxili imkanları hesabına maliyyələşdirir, həm də regionda əsas sərmayədar və kreditor dövlət qismində çıxış edir. Son illərdə respublikamız Gürcüstan və Belarus kimi region dövlətlərinin kredit müraciətlərinə müsbət cavab verib. Ümumilikdə, valyuta ehtiyatlarının davamlı şəkildə dinamik artımı Azərbaycanın investor dövlət kimi mövqe qazanmasına da imkan yaradır.

**Samir MUSTAFAYEV**



Qulu Soltanov,
sərbəst auditor

Mühasibat

## Aktivin faydalı istismar müddətinin təyin olunması

Hələ ənənəvi uçotun apardığı dövrdən bizə «əsas vəsaitin istismar müddəti» və ya «ömür müddəti» ifadəsi bizə tanışdır. İstismar müddəti dedikdə, əsas vəsaitin istismara verildiyi andan tam xarab olduğu dövrədək olan müddət başa düşülürdü.

Əvvəllər Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 01.06.1998-ci il tarixli 21-46 saylı əmri ilə təsdiqlənmiş «Köhnəlmə (amortizasiya) hesablanmasının yeni (açıq) metodunun tətbiqi üzrə Təlimat»a əsasən, tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən bütün idarə, müəssisə və təşkilatlar balanslarında olan əsas vəsaitlərin balans (ilkin, bərpa) dəyərinə köhnəlmə (amortizasiya) hesablanmasının yeni (açıq) metodunu tətbiq etməyə başladılar və bu metod üzrə amortizasiya olunan əmlak və onların tam bərpası üçün illik köhnəlmə (amortizasiya) normaları müəyyən edilirdi. Məsələn, binalar üzrə illik amortizasiya norması ilkin dəyərin 5 faizədək olan hissəsi qədər hesablanırdı və bu da binanın ömür müddətinin 20 (100% : 5%) ildən az olmaması ilə məhdudlaşdırılırdı. Həmçinin, maşın və avadanlıqlar üzrə illik amortizasiya norması ilkin dəyərin 13 faizədək olan hissəsi qədər hesablanırdı və bu da maşın və avadanlıqların ömür müddətinin 7,7 (100% : 13%) ildən az olmaması ilə, nəqliyyat vasitələri üzrə illik amortizasiya norması ilkin dəyərin 15 faizədək olan hissəsi qədər hesablanırdı və bu da maşın və avadanlıqların ömür müddətinin 6,7 (100% : 15%) ildən az olmaması ilə məhdudlaşdırılırdı. Mühasiblər, rəhbər işçilər və mülkiyyətçilər belə hesab edirdilər ki, müəssisə hətta tam müstəqil, yəni qeyri-dövlət müəssisəsi olsa belə, müəssisənin əsas vəsaitlərinin ömür müddəti mülkiyyətçi tərəfindən sərbəst olaraq müəyyənləşdirilə bilməz və bu normativ hüquqi aktlarlardakı norma göstəricilərə əsaslanmalıdır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi 2001-ci il yanvar ayının 1-dən qüvvəyə mindikdən sonra isə Məcəllədə vergitutma məqsədləri üçün amortizasiya normaları müəyyənləşdirildi və mühasiblər həmin normalar daxilində amortizasiya hesablamağa başladılar. Burada da mühasiblər əsas vəsaitlərin ömür müddəti barədə mülahizələr yürütməkdən çəkinir və belə hesab edirdilər ki, əsas vəsaitin müəssisəyə daxil olduğu tarixdən qalıq dəyərinin 100 manatdan az qalacağı dövrədək olan müddəti əsas vəsaitin ömür müddəti kimi qəbul edilməlidir.

01.09.2000-ci il tarixdən qüvvədə olan Azərbaycan Rsepublikasının Mülki Məcəlləsinin 152.5-ci maddəsində göstərilir ki, mülkiyyətçi qanunvericiliklə və ya başqa şəkildə, o cümlədən müqavilə məhdudiyyətləri ilə müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola, ondan istifadə edə və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olunmasın. Yəni xüsusi mülkiyyət növünə malik müəssisələrin mülkiyyətçiləri müstəqil surətdə müəssisəyə məxsus əsas vəsaitlər barəsində öz mülahizələri ilə faydalı istismar müddətini təyin edə bilər.

7№-li MMUS-un 9-cu maddəsində göstərilir ki, torpaq, tikili və ya avadanlıq obyektinin faydalı istismar müddəti müəssisə tərəfindən torpaq, tikili və ya avadanlıq obyektinin istifadəyə yararlı olması gözlənilən dövrdür və ya müəssisənin torpaq, tikili və ya avadanlıq obyektinin istifadəsindən əldə edəcəyi ehtimal olunan məhsul vahidlərinin miqdarıdır. «Faydalı istismar müddəti» amortizasiyanın hesablanması üçün əsas anlayışdır, çünki amortizasiyanın tətbiqi aktivin faydalı istismar müddətini əhatə edən dövrdə baş verir.

İlk baxışda «faydalı istismar müddəti» aktivin müəssisəyə daxil olduğu və ya istismara təhvil verildiyi dövrdən aktivin tam aşınaraq fiziki cəhətdən istismara yararsızlaşması baş verən dövrədək olan müddət kimi başa düşülə bilər. Amma bu anlayışa bir az da geniş məzmunda yanaşmaq lazımdır. Ola bilsin ki, aktiv hələ fiziki cəhətdən tam aşınmayıb, hətta tam saz vəziyyətdə qala bilər, lakin müəssisə üçün onun faydalı istismar müddəti başa çatmış hesab olunar.

Məsələn, müəssisə tərəfindən 2 il əvvəl alınaraq istismar olunan kompüter avadanlığının hazırkı dövrdə modeli köhnəlmiş və cəmiyyət tərəfindən ona olan zövq dəyişmiş, texniki imkanları müasir tələblərin operativliyinə cavab vermir. Bu avadanlığın saz vəziyyətdə olmasına baxmayaraq, yeni satışda olan avadanlıqlar eyni miqdarda işi daha az əmək sərf etməklə, daha qısa müddətdə yerinə yetirmək imkanı vardır və müasir tələbata tam cavab verir. Ona görə də müəssisənin yeni təkmilləşdirilmiş avadanlıqlarla əvəz olunmasına zərurət yaranmışdır. Bu halda, kompüter avadanlığının hələ bir neçə il istismara yararlı olmasına baxmayaraq, onun müəssisə üçün faydalı istismar müddəti hazırda bitmiş hesab edilir, çünki avadanlıq mənəvi köhnəlib və müasir tələblərə cavab vermir.

Adətən, aktivin faydalı istismar müddətini «il» zaman ölçüsü ilə göstərirlər. Lakin müəssisələr elə qeyri-adi və ya fərdi şərtlər daxilində işləyə bilər ki, faydalı istismar müddətinin zaman ölçüsü ilə ölçülməsi məna daşımadığına görə, aktivdən istifadə nəticəsində əldə olunan məhsul, iş və ya xidmətin miqdarı ilə ölçülməsi daha məqsədəmüvafiq hesab edilə bilər.

# Statistik məlumatların əldə olunması xidməti avtomatlaşdırılıb

Ölkə başçısının 23 may 2011-ci il tarixli «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanına əsasən, Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)», eləcə də dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun konkret sahələr üzrə elektron xidmətlər göstərməsi qaydalarının və xidmət növlərinin müəyyən edilməsi tapşırılmışdır. Dövlət strukturlarının fəaliyyətinin hər bir vətəndaş üçün açıq olan şəbəkədə nazirlik və komitələr daxil olmaqla, bu qurumlara müraciət etməsi qaydalarını istənilən vaxt əldə edə və bu təşkilatlara müraciət edə bilməsinə imkan verilməsi məqsədilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) tərəfindən dövlət orqanlarının «Elektron Hökumət» Dövlət İnformasiya Sisteminə (EHDİS) qoşulması prosesi həyata keçirilib. Sistemə artıq bir sıra dövlət qurumlarının göstərdiyi bəzi elektron xidmətlər daxil edilib. Artıq statistik məlumatların əldə edilməsi xidməti də tam avtomatlaşdırılıb və Elektron Xidmətlər Dövlət Portalına inteqrasiya olunub.




Bu xidmətdə komitə tərəfindən rəsmi statistika metodologiyası əsasında sosial, iqtisadi, demoqrafik, ekoloji və digər ictimai proseslərin kəmiyyət tərəfləri haqqında inzibati və ilkin statistik məlumatların işlənməsi və ümumiləşdirilməsi nəticəsində hazırlanmış məlumatların istifadəçilər tərəfindən əldə edilməsi əhatə olunur. Xidmətdən istifadə etməklə hüquqi və fiziki şəxslər əldə edilməsində tətbiq olunan forma və vasitələrdən asılı olmayaraq, məxfi sayılmayan rəsmi statistik məlumatları əldə edə bilərlər. Təqdim olunmuş elektron xidmət bölməsində istifadəçi onu maraqlandıran hazır statistik məlumatları və ya veb-səhifədə tapa bilmədiyi məlumatları bu sorğular vasitəsilə əldə etmək imkanına malik olur. Sorğu edən hüquqi və fiziki şəxslər təqdim olunan blank formasını dolduraraq, real vaxt rejimində səhifə vasitəsi ilə Dövlət Statistika Komitəsinə göndərir və sorğu cavablandırılır. Statistik məlumatların əldə edilməsi ilə bağlı müraciətin edilməsi tam avtomatlaşdırılıb və məlumatlar istifadəçilərə elektron sənəd forması ilə yanaşı, istifadəçinin tələbi ilə kağız formasında da göndərilə bilər.

Bu elektron xidmətin göstərilməsi nəticəsində istifadəçi onu maraqlandıran statistika məlumatlarını Statistika Komitəsinə gəlmədən əldə edə bilər və bu xidmət pulsuz həyata keçirilir. Elektron xidmətlərin göstərilməsi üçün heç bir sənəd tələb olunmur. Sorğunun formalasdırılması «http://www.azstat.org/xidmetler/st_melumat/» internet ünvanında real vaxt rejimində verilmiş ərizə forması əsasında həyata keçirilir. Ərizə formasında tələb olunan statistik məlumatın məzmunu yazılır, sorğu edənin adı, soyadı, ünvanı, is yeri və vəzifəsi (işlədiyi təqdirdə), elektron poçt ünvanı, statistik məlumatın göndərilməsi üçün sorğu edənin poçt ünvanına dair qeyd yeri nəzərdə tutulub. Xidmət real vaxt rejimində həyata keçirilir və müvafiq sorğu forması doldurulduqdan sonra avtomatik olaraq qəbul edilir. Sorğu üçün nəzərdə tutulmuş forma tam doldurulmadıqda ərizə avtomatik rejimdə qəbul olunmur və bununla bağlı istifadəçi ekranda müvafiq qeydi görə bilir. Sorğu daxil olduqdan sonra ondan imtina edilə bilməz və o, cavablandırılmalıdır. Xidmət üzrə nəzərdə tutulmuş məlumatlar əldə olunduqdan sonra həm Dövlət Statistika Komitəsində fəaliyyət göstərən elektron sənəd dövriyyəsi sistemində, həm də ümumi şöbədə daxil olan sənəd kimi qeydiyyatdan keçirilir və onun kağız versiyası komitənin rəhbərliyinə təqdim olunur. Rəhbərlik tərəfindən aidiyyəti icraçı təyin olunur və icrası üçün tapşırıq verilir. Tapşırıq icra olunduqdan sonra dərkənarın məzmununa uyğun olaraq müəyyənləsdirilmiş qaydada statistik məlumatlarla bağlı cavab məktubu imzalanaraq sorğu edənə göndərilir. İnzibati əməliyyata məsul məlumatların yayılması şöbəsidir. Xidmət bütün növ istifadəçilər üçün açıqdır: Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda olan istifadəçilərin xidmət üzrə nəzərdə tutulmuş məlumatları əldə etməsinə heç bir məhdudiyyət qoyulmayıb.

**AYTƏN**

| İYUN | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | |
| | | | | | | |

### vergi təqvimi

Qeyd: ***Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.***

**Ödənilən vergi:**

**20 iyun** - «3», «4», «8», «10.1», «10.2» və «10.3»

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

xarici ölkələrdən vergi xəbərləri

# Əcnəbilərin İsveçrə banklarındakı hesablarından tutulan vergi artmışdır

2011-ci ildə Avropa Birliyinə daxil olan ökələrin vətəndaşlarının İsveçrə banklarındakı hesablarından tutulan vergi hesabına İsveçrənin büdcəsi 2010-cu il ilə müqayisədə 17% artmışdır və həmin artım 506 milyon frank təşkil etmişdir. Bu vergi İsveçrə ilə Avropa Birliyi arasında imzalanmış saziş əsasında tutulur - həmin sazişə görə, ya banklar Avrop Birliyi ölkələrinin vətəndaşlarının İsveçrədə saxladıqları pulun faiz ödənişinə görə vergi tuta bilir, ya da bu saziş milli vergi xidməti orqanlarına bankdakı hesablar və onların sahibləri barədə məlumat verməyə imkan yaradır.

İsveçrənin Federal Vergi Xidmətinin məlumatına görə, 2011-ci ildə 47 min Avropa vətəndaşı İsveçrədə vergi ödəməyərək bu ölkədəki aktivləri barədə müstəqil şəkildə öz ölkələrinin vergi xidməti orqanlarına məlumat vermişdir. İsveçrənin vergi orqanları keçən ilin yekunlarının təhlilinə əsasən bildirmişlər ki, gəlir mənbəyindən tutulan vergilərin təxminən üçdə biri İsveçrənin büdcəsinə köçürülmüş, qalan hissəsi isə hər bir hesab sahibinin mənsub olduğu ölkəyə göndərilmişdir.

Almaniyaya daha böyük məbləğdə - 122 milyon frank həcmində ödəniş edilmişdir. Keçən il üzrə İsveçrə banklarından İtaliya dövlətinin 66 milyon, Fransanın isə 55 milyon frank gəliri olmuşdur.

Xatırladaq ki, bu vergi İsveçrədə 2005-ci ildən tətbiq olunmağa başlamışdır. Əvvəlcə 15% olan olan bu vergi dərəcəsi 2010-cu ildə 20%-ə, 2011-ci ilin iyun ayında isə 35%-ə qaldırılmışdır.

# Ukraynada iri vergi ödəyiciləri üçün Mərkəzi Ofis açılmışdır



İri vergi ödəyiciləri üzrə Mərkəzi Ofisin açılışı mərasimində Ukrayna Dövlət Vergi Xidmətinin rəhbəri Aleksandr Klimenko bildirmişdir ki, bu gün ölkənin büdcə daxilolmalarının 64%-dən çoxunu iri vergi ödəyiciləri təmin edirlər. «Elə buna görə də büdcəni yaradan müəssisələrin özündə rasional və səmərəli metodları və texnologiyaları ehtiva edən ayrıca bölümlər üzrə yüksək peşəkarlıq səviyyəsinə malik xidmətə ehtiyacı var», - A.Klimenko demişdir.

Qeyd etmək lazımdır ki, ofisin kollektivi Ukrayna Vergi Xidmətinin ən yaxşı mütəxəssislərindən, eləcə də ölkənin müvafiq ali təhsil ocaqlarının məzunlarından təşkil olunub. Bundan əlavə, Simferopol, Dnepropetrovsk, Krivoy Roq, Donetsk, Zaporojye, Luqansk, Lvov, Nikolayev, Odessa və Xarkov şəhərlərinin ixtisaslaşdırılmış vergi müfəttişlikləri də Mərkəzi Ofisə tabe olacaqlar.

# Özbəkistanda vergi güzəştlərinin müddəti uzadılmışdır



Ölkədə istehsal olunun ixrac mallarının bazasının genişləndirilməsinə yönəldilmiş «Lokallaşdırma Proqramı» çərçivəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə tətbiq olunan bir sıra vergi və gömrük güzəştlərinin müddəti 2014-cü ilə qədər uzadılmışdır. Bundan əlavə, güzəştlərin aid olduğu təsərrüfat subyektlərinin müəyyənləşdirilməsi qaydalarında da dəyişiklik edilmişdir - bundan sonra güzəşt edilən təsərrüfat subyektlərinin siyahısını hökumət tərtib edəcək. Adları siyahıya düşən subyektlər gəlir vergisini ödəməkdən, eləcə də məhsulun «Lokallaşdırma Proqramı» çərçivəsində istehsal olunmuş hissəsi üçün vahid vergi ödənişindən, əsas fondalar üzrə əmlak vergisindən, həmçinin Özbəkistanda istehsal edilməklə yerli məhsulların istehsalına təsir göstərəcək avadanlıqların və onların ehtiyat hissələrinin ölkəyə gətirilməsi zamanı gömrük rüsumlarından azad ediləcəklər.

idman xəbərləri

# Sərbəst güləşçilərimiz Olimpiadaya hazırlaşırlar



İngiltərənin paytaxtı Londonda keçiriləcək 30-cu Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edəcək sərbəst güləşçilərdən ibarət milli komandamız Qəbələ rayonunda təlim-məşq toplanışı keçir. Sərbəst güləş üzrə milli yığmanın böyük məşqçisi Firdovsi Umudov bildirmişdir ki, mayın 22-dən başlayaraq Qəbələ Olimpiya İdman Kompleksində keçirilən təlim-məşq toplanışına Olimpiadaya lisenziya qazanmış 6 idmançı - Toğrul Əsgərov (60 kq), Cəbrayıl Həsənov (66 kq), Əşrəf Əliyev (74 kq), Şərif Şərifov (84 kq), Xetaq Qazyumov (90 kq), Cəmaləddin Məhəmmədov (120 kq), eləcə də yığma komandanın digər üzvləri cəlb edilmişlər. Lisenziyalı idmançılarımız arasında dünya və Avropa çempionları, Olimpiya Oyunlarının mükafatçısı vardır. Təlim-məşq toplanışı iyunun 7-dək davam edəcəkdir.

# Avropa çempionatında 10 medal

Polşanın Qdansk şəhərində qol güləşi üzrə Avropa çempionatı keçirilmişdir. Azərbaycanın milli komandası çempionatda 10 medal qazanmışdır.

Minabəddin Qurbanov (100 kq-dan yuxarı) və Qismət Vəkilov (55 kq) həm sağ, həm də sol əli ilə yarışda qızıl, Vüsal Zeynalov (55 kq) sağ əl ilə mübarizədə qızıl, sol əl ilə yarışda gümüş medala sahib olmuşlar. Zurab Bəxtiyarov (100 kq) sağ əl ilə gümüş, Zöhrab Mövsümov (65 kq) isə sağ əl ilə bürünc medalla kifayətlənmişlər. Veteranların yarışında isə Müslüm İbrahimov 2 bürünc medal əldə etmişdir.

# Boksçularımızın Rusiya səfəri

Rusiyanın Xabarovsk şəhərində Sovet İttifaqı Qəhrəmanı Konstantin Korotkovun xatirəsinə həsr olunmuş 4-cü beynəlxalq boks turnirinə yekun vurulmuşdur. Azərbaycan Boks Federasiyasından bildirmişlər ki, 15 ölkə nümayəndəsinin mübarizə apardığı turnirdə Azərbaycan komandası da iştirak etmişdir. Boksçularımız turnirdə 1 qızıl, 2 gümüş və 3 bürünc medala sahib olmuşlar. Superağır çəki dərəcəsində yarışan Fərid Şabanov finalda Çin Xalq Respublikasını təmsil edən Jibao Vanqı aşkar üstünlüklə məğlub etmişdir. Belə ki, 3-cü raundda çinli məşqçilər ağ dəsmalı rinqə atmış, J.Vanqın təslim olduğunu bildirmişlər. Pərviz Bağırov (64 kq) və Tural Əhmədov (52 kq) yalnız finalda məğlub olmuş, gümüş medala sahib olmuşlar. T.Əhmədov finalda yerli boksçu Yaroslav Nalivaykoya 7:14 hesabı ilə məğlub olmuş, P.Bağırov isə Aleksandr Malininlə həlledici döyüşə çıxmamışdır. Komandamıza bürünc medalları Kamran Mehdiyev (91 kq) və Rauf Rəhimov (81 kq) qazandırmışlar.

# Avarçəkənimiz final mərhələsində




Azərbaycan akademik avarçəkəni Nataliya Mustafayeva İsveçrənin Lütsern şəhərində keçirilən Dünya Kuboku yarışlarının ikinci mərhələsində finala yüksəlmişdir.

Azərbaycan Milli Avarçəkmə Federasiyasının mətbuat xidmətindən bildirmişlər ki, qadınlar arasında birnəfərlik qayıqla (W1X) mübarizə aparan təmsilçimiz yarımfinalda ilk üçlüyə düşməyi bacarmışdır. O, 2000 metr məsafəni 7 dəqiqə 26,60 saniyəyə qət etmişdir. Finişə ikinci çatan N.Mustafayeva yalnız avstraliyalı Kim Kroudan (7:23.44) geri qalmışdır. Rusiyalı İlya Levina (7:30.05) isə üçüncü yeri tutmuşdur. N.Mustafayeva ilə yanaşı, K.Krou və İ.Levina da finala vəsiqə qazanmışlar.

krossvord



**Soldan sağa:**

1.Antik dövr və orta əsrlərdə Kür və Araz çaylarının qovuşduğu yer, Qarabağ, Mil və Muğan düzünün bir hissəsini əhatə etmiş tarixi-coğrafi məkan; 2.Kanadada ən böyük şəhər. Ontario əyalətinin mərkəzi; 5.Yer kürəsində ən böyük axmaz göl; 8.Cəlilabad rayonunun inzibati ərazi vahidində kənd; 9.Bir çox ərəb ölkələrində pul vahidi; 11.Qədim Roma mifologiyasında heyvandarlıq ilahəsi; 16.Türk və altay xalqlarının inancında insanı «pis gözdən» qoruduğuna inanılan muncuq, ipin ucuna bağlanılan bəzəkli düyün; 18.İki komanda arasında oval bir topun əl və ayaqlarla nəzarət edilərək hesab artırılması əsasına söykənən komanda oyunu; 19.IV əsrin məşhur rəssamı. Siyena rəsm məktəbinin nümayəndəsi; 20.Nəfəsli musiqi aləti.

**Yuxarıdan aşağı:**

1.Antik dövrün məşhur yunan alimi; 2.Yüksək kişi səsi; 3.Az rast gələnən; 4.Məzmunu musiqi dramaturgiyası, xüsusilə vokal musiqi vasitəsilə ifadə edilən musiqi-dram incəsənəti janrı; 6.«Ögey ana» filmində Qurbanəli obrazını canlandıran aktyorun adı; 7.Bəstəkar, «Aypara» ansamblının rəhbəri; 8.Amerikalı yazıçı-fantastın soyadı; 10.Yazılı ədəbiyyatın və epik növün ən irihəcmli janrı; 12.Rusiyanın avtomobil markası; 13.Ruhlara etiqad, ruhların mövcudluğu, onların heyvanların, insanların həyatına, ətraf aləmin predmetinə və hadisələrinə təsir etməsinə inanc; 14.Bitki cinsi; 15.Amerika Kino Akademiyasının mükafatı; 16.Məşhur siyasi xadim, 1966-1977 və 1980-1984-cü illərdə Hindistanın baş naziri; 17.1976-1987-ci illərdə Azərbaycan dilində nəşr edilmiş 10 cildlik ensiklopediya.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Soldan sağa:** 1.Etnos; 3.Manna; 5.Siseron; 7.Abbot; 10.Qolf ; 11.Eri; 12.Dayə; 15.Yanus; 18.Apatiya; 19.Revda; 20.Vəzir.
**Yuxarıdan aşağı:** 1.Etika; 2.Qars; 3.Manat; 4.Anapa; 6.Baydaun; 8.Balaban; 9.Ero; 13.Bəşir; 14.Luara; 16.Səfir; 17.Kant.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148. VÖEN: 1300327481. H/h 12-12258-1 Atabank ASC. Kod: 507581. VÖEN: 9900006651.

M/h: 0137010032944 SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1073, Bakı ş., Landau küç.16

Telefon: 012 403 87 89 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnir və «CBS Polygraphic Production» mətbəəsində çap olunur.
Tiraj: 16000

şedevrlər

# Dahi «dəli»



Van Qoq. «Overdə yağışdan sonra mənzərə» (1890).

Dahi holland rəssamı, postimpressionizm cərəyanının yaradıcılarından olan Van Qoqun (1853-1890) yaratdığı 3000-ə yaxın rəsmdən də ən məşhurları rəssamın həyatının son iki ilini əhatə edir. Dünya rəssamlıq sənətində xüsusi yer tutan Van Qoqun ömründə bu iki il streslərlə, kəskin həyat və yaradıcılıq dramları ilə müşayiət olunmuşdur və o, intihar etmişdir (rəssamın ölümü iləbağlı başqa ehtimal da var).

Rəssamın yaradıcılığı müasirləri tərəfindən heç də birmənalı şəkildə qarşılanmamışdır. Ümumiliklə, impressionizmə və daha sonra post-impressionizmə həmin dövrdə müxtəlif baxışlar mövcud idi. Van Qoq sənəti 1880-ci illərdən maraq doğurmağa başlasa da, onun yaradıcılığı ölümündən sonra könülləri fəth etməyə və populyarlaşmağa başladı. 20-ci əsrin əvvəllərində rəssamın Paris (1901-1905), Amsterdam (1905), Köln (1912) və Berlin (1914) şəhərlərində sərgiləri təşkil olundu. Məhz həmin sərgilər Van Qoqun dahiliyinin təsdiqləndiyini sübut etdi.

Rəngkarlıq estetikası sahəsində çalışan ekspertlərin fikrinə görə, impressionistlərin iş prinsipini rəssamlıq texnikası (işıq, həcm, rənglər, rənglər sıxlığı, layların sayı və s.) deyil, yaşanan və müşahidəyə çatdırılmaq istənən hisslər təşkil edir. Van Qoqun əsərlərində təsvir olunan tabloların izahı üçün sözlər kifayət etmir, çünki hər bir insanın bu əsərlərin seyrindən sonra keçirdiyi hisslər müxtəlifdir. Burada hər şey insanın qavrayışından, həssaslığından, emossionallığından asılıdır. Məsələn, rəssamın ömrünün sonlarında çəkdiyi «Overdə yağışdan sonra mənzərə» adlı əsərində, sanki, bütün təfərrüatlar canlı kimi nəfəs alır, geniş və dolu ştrixlər güclü təəssürat yaradır, torpaqdan boy atan yaşıllıqlar evlərin qırmızı damları, ağ divarları ilə ahəng təşkil edir, bu ahəngi aradan keçən, əvvəli və sonu görünməyən ağ yol sonsuzluğa calayır. Bir qədər uzaqda təbiətin bir-birinə qarışmış rəngləri nəhayətsizlikdən, ucsuz-bucaqsızlıqdan xəbər verir. Bu ahəngdar gözəlliyin içində insan və insanın əməlləri ilə yaranmış elementlər (ev, yol, zəmi, araba və s.) xüsusi yer tutur. Yay yağışının yuyub təmizlədiyi gözəllik insanın gözündən qəlbinə nüfuz etdikcə, rəsmin təsir qüvvəsi artır.

# «Eurovision» mahnı müsabiqəsi

***Bütün dünya, eləcə də ölkəmiz üçün bu ilin əlamətdar hadisəsi olan 57-ci «Eurovision» mahnı müsabiqəsinin final tamaşası Azərbaycan paytaxtından birbaşa Avropanın 50-dən artıq ölkəsində canlı yayımlanmışdır.***




«Baku Crystal Hall»un səhnəsinə ilk olaraq Azərbaycanın dünya şöhrətli muğam ustası Alim Qasımov çıxmış, onun çıxışı rəqslərlə və «Natiq» ritm qrupunun ifası ilə davam etdirilmişdir. Ənənəyə uyğun olaraq, final şousunu ötənilki müsabiqənin qalibi Ell & Nikki dueti açmışdır. Duet keçən il Almaniyanın Düsseldorf şəhərində Azərbaycana qələbə qazandırmış «Running Scared» mahnısını səsləndirmişdir. Açılış mərasimindən sonra finala vəsiqə qazanmış 26 ölkənin təmsilçilərinin çıxışları başlanmışdır. İfaları başa çatdıqdan sonra isə hər kəs həyəcanla səsvermənin nəticələrini gözləmişdir.

Səsvermə üçün ayrılmış vaxtda interval şousu yarışmanın «Öz məşəlini alovlandır!» şüarını Azərbaycan mədəniyyətinin keçmişi, bugünü və sabahının sintezi ilə səhnədə canlandırmışdır. Bu şou tamaşaçılara tanınmış müğənni və bəstəkar Emin Ağalarovun təqdimatında çatdırılmışdır. Onu səhnədə 68 nəfərlik heyət, eləcə də Azərbaycan Kamera Orkestrinin 15 qadın skripkaçısı müşayiət etmişdir.

«Öz məşəli alovlandır!» şousu Azərbaycanın qədim musiqi alətləri olan kamançanın, balabanın və zurnanın müşayiəti ilə başlamışdır. Bu performans skripkaçıların ifası ilə davam etmişdir. Daha sonra isə nağaraçalanlar şouya qoşulmuşlar. Ardınca səhnədə alov püskürmüşdür. Bu isə möhtəşəm bir görüntü yaratmışdır. Elə bu zaman Emin Ağalarov 20 metr hündürlükdən səhnəyə enmiş və «Never Enough» mahnısını ifa etmişdir. Emin Ağalarovun çıxışının sonunda səhnədə Azərbaycanın bayrağı qaldırılmışdır.

«Baku Crystal Hall»da 57-ci «Eurovision» mahnı müsabiqəsinin qalibi müəyyən olunmuşdur. Müsabiqənin final mərhələsində qələbə uğrunda 26 ölkənin mübarizəsində birinci yeri 372 səs toplayan İsveç təmsilçisi Lorin tutmuşdur. İkinci yerə Rusiyanın «Buranovskiye babuşki» qrupu layiq görülmüşdür. Üçüncü yerə isə Serbiya təmsilçisi Zeljko Yoksimoviç çıxmışdır. Azərbaycanı bu yarışmada təmsil edən Səbinə Babayeva dördüncü olmuşdur.

tam ciddi

# İtaliyalılar it və pişiklər üçün vergi ödəyəcəklər

İtaliya parlamentinin alt palatasının sosial siyasət komissiyasında artıq bu barədə müvafiq sənəd qəbul edilib və o, tezliklə deputatların səsverməsinə təqdim olunacaq. Qanun layihəsində qeyd edilir ki, it və pişik sahiblərinə qoyulacaq vergi məbləğini hər bir şəhərin administrasiyası müstəqil şəkildə müəyyənləşdirə bilər. Qanun layihəsinin müəllifləri əmindirlər ki, bu addımın atılması sahibsiz heyvanların tutulub saxlanılması üçün fondların yaradılmasına yardım edəcək. Qanun layihəsinə görə, toplanılan vergidən sahibsiz it və pişiklərə baytar xidmətinin göstərilməsi, onların uçotunun aparılması, onlara öləndə basdırılma yerləri üçün vəsait ayırmağa imkan yaranacaq. Dövlət sığınacaqlarından ev heyvanı götürmüş şəxslərin isə vergidən azad olunması nəzərdə tutulur.



Lakin İtaliya parlamentarilərinin heç də hamısı bu qanun layihəsini dəstəkləmirlər, bəzi müxalif deputatlar evdə saxlanılan it və pişiklərə dəbdəbəli həyat predmeti kimi yanaşılmasına qəti etiraz edirlər.

Qeyd edək ki, İtaliya dünya üzrə ən böyük borclu olan dördüncü ölkədir. 2011-ci ilin sonundan hakimiyyətə gəlmiş Mario Monti kabineti vergi dərəcələrini qaldırmış, vergidən yayınma hallarına qarşı nəzarəti gücləndirmək məqsədilə sərt tədbirlər müəyyənləşdirmiş olsa da, hələlik dövlət büdcəsinə daxilolmaların artması istiqamətində real nəticələr əldə olunmayıb.

söz vaxtına çəkər

# Haqq sözü deyərkən...



Bu gün Mirzə Ələkbər Sabirin 150 yaşı tamam olur. Öz yaradıcılığı ilə Azərbaycan poeziyasına yeni bir istiqamət vermiş şair 12 yaşına qədər Şamaxıda mollaxanada oxumuş, sonra məşhur şair Seyid Əzim Şirvaninin açdığı yeni üsullu məktəbə keçmişdi. Lakin bir-iki il sonra atası Ələkbəri təhsildən ayıraraq dükanda işləməyə məcbur etmişdi. Mükəmməl təhsil ala bilməyən şair dövrünün qabaqcıl ziyalıları ilə əlaqə saxlayır, bədii yaradıcılıqla məşğul olurdu...

XX əsrin əvvəllərindən başlayaraq Sabirin şeirləri mətbuat səhifələrində görünür. O, şeirlərini 1903-cü ildə «Şərqi-Rus» qəzetində, bir qədər sonra isə «Həyat» qəzetində çap etdirir. 1906-cı ildə nəşrə başlayan «Molla Nəsrəddin» jurnalının ən sevimli şairi, ən fəal müəlliflərindən biri olmuşdur. Jurnalın redaktoru Cəlil Məmmədquluzadə ilə Sabir özlərinə çoxlu dost qazandıqları kimi, düşmən də qazanmışdılar. Ruhanilərin Sabirin ölümünə fitva verdiyi, varlıların ona hədələyici məktublar göndərdiyi, qoçuların küçədə yolunu kəsib ağır sözlər dediyi vaxtlar da olmuşdu...

1907-ci ilin əvvəllərində Bakıya gəlib bir müddət «İrşad» qəzetinin redaksiyasında korrektor işləyir və müəllimlik imtiyazı əldə etmək üçün imtahan verməyə hazırlaşır. 1908-ci il aprelin 11-də Bakı quberniya ruhani idarəsində imtahan verən şair mayın 7-də Tiflisə gedib Qafqaz şeyxülislamı idarəsindən ana dili və şəriət müəllimi diplomu almışdı. Həmin diplomla bir müddət Şamaxıda işləyəndən sonra 1910-cu ilin əvvəllərində Bakıya gəlmişdi. Əvvəlcə «Zənbur» jurnalının redaksiyasında çalışmış, Balaxanı məktəbində dərs demişdi. Aylarla ehtiyac içində, əzab-əziyyətlə dolanan böyük şair 1910-cu ilin axırlarında ciyər xəstəliyinə tutulub Şamaxıya qayıtmışdı. 1911-ci ilin may ayında müalicə üçün Tiflisə gedib, dostu C.Məmmədquluzadənin evində yatır. Həkimlər şairə cərrahiyyə əməliyyatı təklif etsələr də, buna razı olmayıb yenidən Şamaxıya üz tutmuşdu. Bu misralar həmin günlərdən qalmış ağrılı nişanələrdəndir:

*İstərəm ölməyi mən, leyk qaçar məndən əcəl,*
*Gör nə bədbəxtəm, əcəldən də gərək naz çəkəm!*

«Molla Nəsrəddin» jurnalı 1911-ci il 14-cü sayında xəstə şairə maddi yardım etməyə çağıran elan dərc etmişdi. Bu elandan sonra Rusiyanın və Şərqin bir çox şəhərlərindən onlarca oxucu böyük xalq şairinə məhəbbət və hörmət əlaməti olaraq jurnalın ünvanına ianə göndərirdilər. Lakin bunun faydası olmadı və Sabir 1911-ci il iyulun 12-də, həyatının və yaradıcılığının ən parlaq vaxtında vəfat etdi.

Şairin xatirəsinə hörmət əlaməti olaraq vəfatından bir il sonra, 1912-ci ildə arvadı Büllurnisə xanım, dostları Abbas Səhhət və M.Mahmudbəyovun səyi ilə onun şeirləri «Hophopnamə» adı ilə çap olundu və o vaxtdan bəri «Hophopnamə» Azərbaycanda ən sevilən və ən çox nəşr edilən kitablardan biridir.

*Mən belə əsrarı qana bilmirəm,*
*Qanmaz olub da dayana bilmirəm!..*

*Axtaxana, dağda dana böyüdü,*
*Mən böyük ollam haçana, bilmirəm!..*

*Derlər utan, heç kəsə bir söz demə, -*
*Haqq sözü derkən utana bilmirəm!..*

*Neyləməli, göz görür, əqlim kəsir,*
*Mən günəşi göydə dana bilmirəm!..*

*Şiddəti-seylan ilə baran tökür [1],*
*Bir koma yox, daldalana bilmirəm!..*

*Derlər usan, hərzəvü-hədyan demə, -*
*Güc gətirir dərd, usana bilmirəm!..*

*Derlər, otur evdə, nedim, kasibəm,*
*Kəsb eləməzsəm, qazana bilmirəm!..*

*Derlər, a qanmaz, de yıxıl, öl, qutar!*
*Hə, balam, doğrusu, ay dadaş, mən daxi*
*Məsləhət ondan o yana bilmirəm!..*

[1] *Burada: leysan yağışı yağır*

# Nə? Harada? Nə zaman?

***Mayın 27-də Vergilər Nazirliyinin nəzdindəki «Azərbaycan» İntellektual Oyunlar Klubunun «Nə? Harada? Nə zaman?» üzrə birinci çempionatının final oyunu olmuşdur. Azərbaycan Universitetinin tələbələri arasında keçirilmiş birinci çempionat 6 turdan ibarət olmaqla aprelin 15-də başlamış və ümumilikdə 11 komandanın iştirakı ilə keçirilmişdir.***



Vergilər Nazirliyinin əməkdaşı Aydın Piriyev tərəfindən təşkil edilmiş oyunlarda yüksək fəallıq və kifayət qədər yüksək nəticələr müşahidə olunmuşdur. Bir aydan çox davam edən turnirin yekununda universitetin «Sumqayıt Təfəkkür» komandası 1-ci, «Bələdiyyələr» komandası 2-ci, «Boz qurd» komandası 3-cü yerə layiq görülmüşdür. Final oyunundan sonra qalib komandalara diplomlar təqdim olunmuş və xatirə şəkilləri çəkdirilmişdir.

Qeyd olunmuşdur ki, belə yarışlar sonuncu olmayacaq və universitetin müntəzəm daxili çempionatının keçirilməsi planlaşdırılır. Tələbələr arasında mütəmadi olaraq Azərbaycan və rus dillərində çempionat keçiriləcək, vaxtaşırı beynəlxalq yarışlar, həmçinin ölkə miqyasında «Azərbaycan» İntellektual Klubunun Kuboku uğrunda turnirlər təşkil olunacaqdır. «Azərbaycan» İntellektual Oyunlar Klubu yeni yaradılacaq İntellektual Oyunlar Assosiasiyası ilə sıx əməkdaşlıq edəcək və klub Beynəlxalq Klublar Assosiasiyasına qəbul olunmaq üçün daha geniş müstəvidə təmsil olunacaq.

## Fotomüsabiqə



Dayanmadan dəyişən zamanın bir anını əbədiləşdirib yaddaşlarımıza köçürən fotolar unudulmaz xatirələrin nişanəsi olmaqla bərabər, həm də böyük estetik həzz mənbəyidir.

Əziz oxucular! İndi, demək olar ki, hamının foto çəkmək, zamanın bir anını əbədi xatirəyə çevirmək imkanı var. Bəs çəkdiyiniz fotoları (əlbəttə, zəruri estetik tələblərə cavab verən işləri) başqaları ilə bölüşmək arzunuz varmı? Düşünürük ki, «Vergilər» qəzetinin fotomüsabiqəsi foto həvəskarları üçün gözəl imkan yaradır.

Müsabiqənin nəticələri ilin sonunda yekunlaşacaq və üç nəfər qalib, başqa sözlə, birinci, ikinci və üçüncü yerlərə layiq görülənlər qiymətli rəqəmsal fotoaparatla mükafatlandırılacaqlar.

***Sizi müsabiqəmizə qoşulmağa dəvət edirik.***

*Müsabiqəyə təqdim etmək istədiyiniz fotoları elektron formatda bu ünvana göndərə bilərsiniz: osmanogm@yahoo.com*

## Müdriklər deyib ki...



***«Zaman elə bir ilğımdır ki, xoşbəxtlik anlarında qısalır, əzab anlarında isə uzanır».***

***Riçard Oldinqton (1892-1962)***